# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

15 APREL 2020-ci il

№ 57 (4188)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur


# TƏCAVÜZKAR ERMƏNİSTAN REJİMİ DÜNYANI SAYMADI - QONDARMA QURUMDA SEÇKİ OYUNU DAVAM ETDİRİLDİ...

səh. 8

Ermənistan Azərbaycan qarşısında aciz duruma düşdüyünü etiraf edir - Moskvanın Bakıya hərbi texnika satışı İrəvanda yeni təşviş dalğası yaratdı...

səh. 9

Azərbaycanda virusun indiki yayılma dinamikası - bəzi deputatların qeyri-adekvat sakitləşdirici mülahizələri...

səh. 3

Koronavirusla müharibə dövründə də barışmaz müxalifətçilikdə dəyişiklik yoxdur, üstəlik, dövlət tədbirləri də hədəfə alınır...

səh. 5

Rusiyadan Ermənistana bəzi ərzaqların ixracına məhdudiyyətlər - Ermənistanda anti-Rusiya ovqatı yenidən körüklənir...

səh. 7

Moskva İrəvanı rəsmən tək qoydu... Avropa öz başının hayında, pandemiyanın dağıdıcı təsiri köməksiz Ermənistanı daha dərin iqtisadi böhrana sürükləyir

səh. 6

Neft qiymətini sürətlə yüksəldəcək yeni saziş gündəmdə... Tramp Rusiya və Səudiyyəyə təşəkkür etdi

səh. 11

Karantin dövründə xüsusi icazə və sosial dəstək tədbirləri sahəsində pozitiv və neqativlər - virtual dələduzlar, yas adı ilə SMS-dən sui-istifadə...

səh. 13

Bakıda mənzillər də, kirayə qiymətləri də ucuzlaşdı - koronavirusa görə müvəqqəti hal, ya virusdan sonra...

səh. 15




səh. 3

## Azərbaycanın koronavirus əleyhinə xüsusi rejim qaydaları dünyada tətbiq edilməyə başlayır



Şeyxə müraciətlər hələ cavabsız qalır - 1500 nəfərin adambaşına 4500 manatı niyə bu günlərdə ölkəmizin özünə qalmasın...

səh. 5

Paşinyan koronavirusdan siyasi sui-istifadədə lider mövqedə - seçki keçirir, fövqəladə vəziyyət elan edir, rəqiblərini işdən çıxarır...

səh. 7



190 manat yardım üçün əsassız müraciət edənlər o qədər çox olur ki...

səh. 4

səh. 12

Koronavirusun yayılması ilə bağlı yalan yayanlara həbs - ekspertlərdən birmənalı dəstək...



səh. 4

Əhalinin böyük əksəriyyəti işığın qiymətində güzəştli tarifdən fayda görəcək



səh. 14

Beynəlxalq "Fitch"in Azərbaycan hesabatında müsbət və anlaşılmaz iki məqam - dövlət borcu yaxşı, xarici investisiyalar isə...



səh. 14

Bu il bütün bank əmanətlərinin cəmi 10 faizi bölgələrdə olsa da - bölgələrdə 31 faiz artım nə ilə bağlıdır...



səh. 15

"Kar", "kor", "lal" qalan dilimiz - onu niyə bu günə qoyurlar...



# Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına dair videomüşavirə keçirilib



**Aprelin 14-də Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib.**

Müşavirədə ilin birinci rübündə həyata keçirilən tədbirlərdən danışan Prezident İlham Əliyev Azərbaycanda islahalatların davam etdirilməsinin yaxşı nəticələrə gətirib çıxardığını deyib. Koronovirus pandemiyası ilə mübarizə çərçivəsində görülən işləri vurğulayan dövlətimizin başçısı Azərbaycanda vəziyyətin nəzarət altında saxlanıldığını bildirib. İqtisadi vəziyyətə pandemiyanın təsiri ilə əlaqədar hökumətə bir sıra tapşırıqlar verən Prezident İlham Əliyev 2020-ci ilin də bir çox sahələri əhatə edən dərin islahatlar dövrü olacağını deyib, ilin birinci rübünün iqtisadi göstəricilərindən danışıb.

Sonra Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Kənd təsərrüfatı naziri İnam Kərimov məruzə edib.

Prezident İlham Əliyev müşavirəyə yekun vurub.

# ABŞ səfirliyi həmrəylik jestinə görə Heydər Əliyev Mərkəzinə təşəkkür etdi

**Biz ABŞ bayrağını möhtəşəm memarlıq abidələrindən olan Heydər Əliyev Mərkəzinin binası üzərində nümayiş etdirdiyi üçün mərkəzə öz minnətdarlığımızı bildiririk.**

"Trend"-in məlumatına görə, bu sözlər ABŞ-ın Azərbaycandakı səfirliyinin yaydığı açıqlamada öz əksini tapıb.

Məlumatda bildirilir:"Belə çətin zamanda bu, ABŞ-la Azərbaycan arasındakı həmrəyliyin və iki millət arasında olan dostluğun nümunəsidir. Biz birlikdə COVID-19 pandemiyasına qalib gələcəyik!".

Qeyd edək ki, aprelin 13-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Amerika Birləşmiş Ştatlarının bayrağı videoproyeksiya olunub. Bununla Azərbaycanın koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə həmrəyliyi nümayiş olunub.

Aprelin 3-dən başlayaraq hər gün virusdan zərərçəkən bir dövlətin bayrağı həmin ölkənin musiqisinin müşayiəti ilə Mərkəzin binası üzərinə proyeksiya olunur. Bununla Heydər Əliyev Mərkəzi COVID-19-un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir.

İndiyədək koronavirus xəstəliyinin geniş yayıldığı Çin, Fransa, Almaniya, İran, İtaliya, Rusiya, İspaniya, Türkiyə və Böyük Britaniyanın bayraqları Mərkəz binasının üzərində nümayiş olunub.



## Azərbaycanda daha 49 nəfərdə koronavirus aşkarlandı, 62 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycanda 49 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 62 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bakixeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, şəkərli diabet və ürəyin işemik xəstəliyi olan 1933-cü il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 1197 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 351 nəfəri müalicə olunaraq sağalıb, 13 nəfər vəfat edib, 833 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 24 nəfərin vəziyyəti ağır, 28 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

## Mətbuat Şurası jurnalistlərin siyahısını Operativ Qərargaha təqdim edib

**Azərbaycan Mətbuat Şurasının Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahla apardığı müzakirələr nəticəsində əmək müqaviləsi olmayan, xidməti müqavilə ilə frilans kimi çalışan jurnalistlərin sərbəst fəaliyyətlərinə icazə verilməsi barədə razılıq əldə edilib. Şuraya bununla bağlı müraciət edən kütləvi informasiya vasitələri və jurnalistlərin siyahısı Operativ Qərargaha təqdim olunub.**

Qeyd edək ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən fəaliyyətinə icazə verilən istiqamətlər sırasında kütləvi informasiya vasitələri də yer alıb. Bununla belə MŞ-yə mövcud istiqamətdəki suiistifadələr barədə məlumatlar daxil olur. Belə hallar Şuranın Daxili İşlər Nazirliyi ilə birgə monitorinq qrupu tərəfindən diqqətdə saxlanılır.

Eyni zamanda real jurnalistlik fəaliyyəti ilə məşğul olan elə jurnalistlər də var ki, əmək müqaviləsi ilə çalışmadıqlarından problemlərlə üzləşirdilər. MŞ belə hallarında nəzərə alınmasının tərəfdarıdır və qurumun Operativ Qərargahla əldə etdiyi razılıq bundan irəli gəlir.

Mətbuat Şurası bir daha bildirir ki, jurnalistika, fəaliyyəti cəmiyyət üçün zəruri sahə olduğundan, media təmsilçilərinin iş sərbəstliyinə icazə verilib. Ancaq bu o demək deyil ki, sərbəstlik tam məhdudiyyətsizlik kimi başa düşülsün. Ümumən karantin rejimində müəyyənləşdirilmiş tələb və tövsiyələrə əməl olunması şərtdir. "Evdə qal" prinsipinə riayət mütləqdir. Jurnalistlər, əgər bunun üçün imkanları varsa, mümkün qədər öz yaşayış yerlərində fəaliyyətlərini davam etdirməlidirlər. KİV rəhbərlərinin məsələyə həssas yanaşmaları tövsiyə olunur. Nəzərə alınmalıdır ki, bayırda, insanlarla daha çox təmas infeksiyaya yoluxma risqini artırır.

# Koronavirusdan zərər çəkmiş sahibkarlara maliyyə dəstəyinin həcmi açıqlandı

**Azərbaycan Prezidentinin 2020-ci il 19 mart tarixli sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən, 14 aprel tarixinə İqtisadiyyat Nazirliyinə muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi üçün koronavirus (COVİD-19) pandemiyasından zərər çəkmiş 10.914 vergi ödəyicisi və maliyyə dəstəyi almaq üçün 16.502 fərdi (mikro) sahibkar, cəmi 27.416 vergi ödəyicisi müraciət edib.**



Baki-xeber.com xəbər verir ki, muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi layihəsi çərçivəsində müraciət etmiş 10.914 vergi ödəyicisində çalışan muzdlu işçilərin sayı 124.510 nəfərdir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən bu müraciətlərdən 78.068 işçini əhatə edən 8.487 vergi ödəyicisinin müraciətləri araşdırılaraq təsdiq edilib və ayrılacaq maliyyə vəsaitinin vergi ödəyicilərinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib. Bu proqram üzrə indiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 33,78 mln. manat, o cümlədən 1-ci mərhələ üzrə ödənilməsi nəzərdə tutulan vəsaitin həcmi 16,9 mln. manat təşkil edir. Aprelin 13-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən 2.636 vergi ödəyicisinə 24.463 nəfər muzdlu işçinin əməkhaqqı üzrə 5,31 mln. manat vəsaitin köçürülməsi təmin edilib.

Fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi proqramı çərçivəsində 16.502 vergi ödəyicisindən müraciət daxil olub. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən 15.689 müraciət araşdırılaraq təsdiq edilib və maliyyə dəstəyinin bank hesablarına köçürülməsi üçün Maliyyə Nazirliyinə təqdim edilib.

Bu proqram üzrə indiyədək təsdiq edilmiş müraciətlər üzrə maliyyə dəstəyinin həcmi 15,48 mln. manat təşkil edir. Aprelin 13-nə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən maliyyə dəstəyi çərçivəsində 3,53 mln. manat vəsaitin 3.041 fərdi (mikro) sahibkarın bank hesablarına köçürülməsi təmin edilib.

**Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən xüsusi karantin rejimində insanların hərəkətini idarə etmək üçün yaradılmış icazə sistemi (icaze.e-gov.az/portalı) artıq bir sıra ölkələrin marağına səbəb olub.**

*"Çünki ortalıqda həm vətəndaşın işini asanlaşdıran, həm də dövlət qurumlarına..."*

# Azərbaycanın koronavirus əleyhinə xüsusi rejim qaydaları dünyada tətbiq edilməyə başlayır

***Elçin Mirzəbəyli:*** *"Bir sıra ölkələrin buna maraq göstərməsi Azərbaycandakı icazə sisteminin innovativliyindən və üstünlüyündən xəbər verir"*




Bununla bağlı yayılan məlumata görə, bəzi ölkələr Azərbaycanda istifadəyə verilən icazə sistemini tətbiq etmək istəyirlər. Bunların sırasında Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirlikləri də var.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda xüsusi karantin rejimində vətəndaşların hərəkəti "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" vasitəsilə tənzimlənir. Hərəkətinə icazə verilməsi üçün dövlət qurumları və bir çox özəl təşkilatın əməkdaşlarının məlumatları "icaze.e-gov.az" portalında yerləşdirilib. Həmin şəxslər SMS sisteminə bildiriş göndərmədən evdən çıxa bilirlər. Digər vətəndaşlar isə evdən çıxmaq istədiklərinə dair icazə əldə etmək üçün mobil nömrədən icazənin məqsədini bildirən xüsusi kodu, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsini SMS-lə 8103 qısa nömrəsinə göndərirlər.

Göründüyü kimi, Azərbaycanda xüsusi karantin rejimində insanların hərəkətini idarə etmək üçün yaradılmış icazə sistemi digər ölkələrin də diqqətini cəlb edir. Bu, sözügedən sistemin daha effektli olmasından xəbər verir. Məsələ ondadır ki, bunun tətbiq sayəsində koronavirusun ölkədə yayılma dinamikasının genişlənməsinin qarşısı alındı. Digər tərəfdən, bu sistemə çıxış vətəndaşlar üçün daha əlçatandır.

Maraqlıdır, bəs ekspertlər bir sıra ölkələrin Azərbaycanda istifadəyə verilən icazə sisteminə maraq göstərmələrini necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, sözügedən ölkələrin buna maraq göstərməsi Azərbaycandakı icazə sisteminin innovativliyindən və üstünlüyündən xəbər verir: "Məsələ ondadır ki, Azərbaycanda karantin dövründə tətbiq olunan ayrı-ayrı innovativ metodlar dünyanın müxtəlif ölkələrinin diqqətini cəlb edir. Artıq Rusiyanın paytaxtı Moskvada Azərbaycanın təcrübəsinə uyğun bu sistem tətbiq edilir. Belə ki, orada elektron icazələrin alınması ilə bağlı saytlar yaradılıb. Paralel olaraq da SMS icazələrin alınması üçün müvafiq olaraq həm saytlar, həm də "qaynar xətt" yaradılıb.

Bu baxımdan, artıq Azərbaycan təcrübəsi digər ölkələrdə tətbiq olunmaqdadır. Sözügedən prosesin davam edəcəyini düşünürəm. Çünki ortalıqda həm vətəndaşın işini asanlaşdıran, həm də dövlət qurumlarına vətəndaşların bir ərazidə kütləvi şəkildə toplaşmaması üçün prosesin tənzimlənməsinə imkan verən bir ağıllı yanaşma var. Azərbaycan bu məsələdə ilk addımı atmaqla uğurlu təcrübə əldə edib. Ötən müddət ərzində ölkəmiz bir neçə uğurlu həll variantı tapıb. Bu da, təbii ki, dövlət idarəçiliyində innovativ yanaşmanın əsas üstünlüyünün və proseslərə çevik nəzarətin göstəricisidir".

***Vidadi ORDAHALLI***

---

**Ölkəmizdə hər gün açıqlanan koronavirusa yoluxma ilə bağlı statistika pandemiyanın ölkəmizdə yayılmaqda davam etdiyini sübut edir. Təəssüflə qeyd etməliyik ki, artıq verilən rəsmi məlumatlarda biz ölüm hallarının qeyd edildiyinin şahidi oluruq.**




# Azərbaycanda virusun indiki yayılma dinamikası - bəzi deputatların qeyri-adekvat sakitləşdirici mülahizələri...

***Rasim Quliyev:*** *"Koronavirusla mübarizə hələ bitməyib, biz aktiv fazanın sonuncu mərhələsinə çatmışıq"*

Məhz buna görə də, Operativ Qərargah günü-gündən qaydaları sərtləşdirir, maarifləndirmə işlərinə daha çox önəm verir. Müşahidələr göstərir ki, hələ pandemiyanı ciddi qəbul etməyən vətəndaşlarımız da az deyil. Bəzən cərimələr və digər inzibati tədbirlər belə onların evdən küçəyə çıxmasının qarşısını ala bilmir. Belə vəziyyətdə cəmiyyətdə söz, mandat sahibi olanların da üzərinə ağır məsuliyyət düşür. Onlar əhaliyə dövlətin apardığı işləri daha sadə dildə izah etməlidirlər. Ancaq bəzən biz görürük ki, bu qəbildən olan insanlar heç də lazım olan təbliğatı aparmır, əksinə, "gündən-günə artan, ciddiləşən tədbirlərin nəticəsində biz artıq bu bəladan qurtulmağa doğru yaxınlaşırıq" kimi real vəziyyətlə uzlaşmayan fikirlər səsləndirirlər.

Ümumiyyətlə, Azərbaycanda koronavirusla bağlı vəziyyət haqda nə demək olar, perspektivdə nə gözlənir və hansısa əlavə tədbirlərə ehtiyac varmı?

" Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada real vəziyyətlə insanların arzuları arasında bir fərq qoyulmalıdır:"İnsanlarımız və hər kəs bu bəlanın başımızın üstündən tezliklə götürülməsini istəyir. Bu da gərgin psixoloji vəziyyətlə bağlıdır. Bizdə sonuncu dəfə komendant saatı, yəni hərəkətlə bağlı məhdudiyyətlər 1990-cı ildə olub. Həmin vaxt Azərbaycan heç müstəqil deyildi. Müstəqillik dövründə əminamanlıq, təhlükəszlik içində yaşayan əhalimiz belə vəziyyətlə heç vaxt üzləşmədi. Bu səbəbdən də vətəndaşlarımızın qadağalardan psixoloji olaraq yorula bilməsi normaldır. Bu başqa məsələdir. Ancaq rəsmi, cəmiyyətdə müəyyən titulları daşıyan şəxslər bununla bağlı bəyanatların verilməsində real faktlara əsaslanmalıdırlar. Koronavirus bir günün içində yox olan bəla deyil. Proses necə tədricən artan dinamika ilə hərəkət edibsə, elə də başa çatmalıdır. Bunun üçün biz yoluxma hallarının azaldığını və sağalanların sayında artımı görməliyik. Hazırda isə açıqlanan rəqəmlərdən belə tendensiyanı müşahidə etmirik. Biz bir günün içində deyə bilmərik ki, hər şey bitdi və həyat əvvəlki axarına qayıtsın. Bu olacaq, amma tədricən. Bütün məhdudiyyətlərin bir anın içində ləğv edilməsi hələ tezdir. Dünyadakı başqa dövlətlər də bu prosesə olduqca ehtiyatlı davranırlar. Biz arzulayırıq ki, bəla bütün dünyadan, xüsusən də ölkəmizin üzərindən yoxa çıxsın.

Dövlətimiz də bu istiqamətdə əlindən gələni edir. Belə hal nə vətəndaşlara, nə də dövlətə xoşdur. Yalnız səbr edib qələbə qazana bilərik. Koronavurusla mübarizə hələ bitməyib, biz aktiv fazanın sonuncu mərhələsinə çatmışıq. Belə halda düşmən açıq görsənir. Ona qarşı necə mübarizə aparmağı da insan mənimsəyə bilir. İradə və əzmkarlıqla dövlətimizə qulaq asmalıyıq. Birlik və həmrəyliklə bunu adlaya bilərik. Vətəndaşlarımıza, dövlətimizə və siz jurnalistlərə uğurlar arzulayıram".

***Məhəmmədəli QƏRİBLİ***

# 190 manat yardım üçün əsassız müraciət edənlər o qədər çox olur ki...

**Məlum olduğu kimi, Azərbaycanda koronovirusa görə dövlət tərəfindən işsizlərə 190 manat birdəfəlik yardımın ödənilməsi prosesinə başlanıb. İşsizlər müvafiq portala daxil olaraq qeydiyyatdan keçirlər və sözügedən məbləği Dövlət Məşğulluq Xidmətindən alırlar. Aprelin 13-nə olan məlumata görə, Azərbaycanda 75 min nəfər işsizə 75 min manat ödənilib.**

*"Bir çox insan düşünür ki, məşğulluq xidmətlərinə müraciət edərək, o ödəmələri əldə edə biləcək, ancaq elə deyil"*

**Elşad Məmmədov:** *"Fikrimcə, bu istiqamətdə maarifçiliklə bağlı kampaniya aparılmalıdır ki, bu kriteriyaya uyğun olmayan vətəndaşlar 190 manat birdəfəlik ödəniş üçün müraciət etməsinlər"*




Bu gün işsiz adı ilə müvafiq xidmətə müraciət edənlərin sayının kifayət qədər olduğu məlumdur. Bir çox hallarda isə başqa yerlərdən ödəmə alanlar da "işsiz kimi" 190 manatı əldə etmək istəyirlər.

Rəsmi qurumlar, bir çox hallarda, başqa yerlərdən ödəniş alanların bu məsələ ilə bağlı müraciətlərinin geniş miqyas aldığını deyirlər.

Dövlət Məşğulluq Xidmətinin rəis müavini Cəmaləddin Quliyev birdəfəlik ödəməyə müraciət edən zaman sistemdə baş verən donmalara münasibət bildirib. C.Quliyev KİV-ə məlumat verib ki, birdəfəlik ödəmə heç bir gəliri olmayan ailələrə verilir: "Vətəndaşlardan xahiş olunur ki, əgər dövlətdən digər ödənişlər alırlarsa, 190 manat üçün müraciət etməsinlər. Sistemdə yüklənmələr olur. Sistemə müraciətlərin sayı da həddən artıq çox olur. Bizim sistem digər dövlət qurumlarının sistemi ilə inteqrasiya olunduğuna görə burada yüklənmələr baş verir. Bu da müraciət edən vətəndaşların narazılığına səbəb olur. Qeyd edirlər ki, sistem yüklənib və onlar məlumatları daxil edə bilmirlər".

Tanınmış iqtisadçı Elşad Məmmədov "Bakı-Xəbər"ə bildirdi ki, başqa yerlərdən ödəniş alanların əlavə olaraq da 190 manat birdəfəlik yardım alması mümkün deyil. O hesab edir ki, bu istiqamətdə müraciətlərin sayının artması birdəfəlik ödəmənin hansı şəxslərə verilməsi ilə bağlı maarifçilik işinin zəif qurulması ilə bağlıdır. "Bilirsiniz, bu yalnız Azərbaycana aid məsələ deyil, bütün dünyada əhali çox ağır iqtisadi vəziyyətlə üzləşib. Belə olduğu halda, reallaşdırılan sosial-iqtisadi paketlə bağlı əhali arasında qeyri-müəyyənlik var. Bir çox insan düşünür ki, məşğulluq xidmətlərinə müraciət edərək, o ödəmələri əldə edə biləcək, ancaq elə deyil. Amma, əslində, sosial-iqtisadi paketdə konkret meyarlar göstərilib ki, kimlərə iki ay müddətində 190 manat birdəfəlik ödəniş veriləcək. Ona görə də, fikrimcə, bu istiqamətdə təşviqlə, maarifçiliklə bağlı kampaniya aparılmalıdır ki, bu kriteriyaya uyğun olmayan vətəndaşlar 190 manat birdəfəlik ödəniş üçün müraciət etməsinlər. Bu müraciətlərin sayının çox olması bir daha onu deməyə əsas verir ki, çox güman, sosial-iqtisadi paket daha da təkmilləşdirilməlidir. Biz sosial istiqamətdə əhalinin geniş təbəqələrinə geniş yeni mexanizmin həyata keçirilməsi istiqamətində yeni qərarların verilməsini gözləməliyik. Çünki iqtisadi vəziyyət kifayət qədər mürəkkəbdir və əhalinin geniş təbəqəsinin maddi dəstəyə ehtiyacı var".

E.Məmmədov hesab edir ki, indiyə qədər əhalinin müxtəlif qruplarının sosial-iqtisadi durumunun yüksəldilməsi üçün dövlət tərəfindən həyata keçirilən paketlər genişləndirilə bilər: "Düşünürəm ki, biz iqtisadi-sosial paketin genişlənməsinin şahidi olacağıq. Əks halda, iqtisadiyyatda dayanıqlığın qorunması mümkün deyil. Bu bir tərəfdən sosial müdafiə üçün lazımdır, digər tərəfdən də iqtisadi fəallığı qorumaq gərəkdir. Hesab edirəm ki, iqtisadi fəaliyyətə dəstək mexanizmləri təkmilləşdirilərək iqtisadiyyata tətbiq olunacaq".

***İradə SARIYEVA***

# Əhalinin böyük əksəriyyəti işığın qiymətində güzəştli tarifdən fayda görəcək

**Məlum olduğu kimi, Nazirlər Kabineti əhali üzrə elektrik enerjisinin aylıq istehlak həcminin tənzimlənməsi ilə bağlı tədbirlər haqqında qərar verib. Qeyd edək ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.**

*"...əhalinin sosial müdafiəsi ilə bağlı atılan addımlardan biridir"*

**Pərviz Heydərov:** *"İşıq limitinin artırılması yüksək qiymətləndirilməlidir"*



Qərara əsasən, "Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 17 nömrəli qərarı ilə müəyyən edilmiş əhali üzrə elektrik enerjisinin 7 qəpik/kilovat-saat tarifi tətbiq olunan aylıq istehlak həcmi 2020-ci ilin aprel ayından etibarən ardıcıl iki hesabat ayı müddətində 100 (yüz) kilovat-saat artırılaraq, 400 (dörd yüz) kilovat-saat müəyyən edilib.

Bu qərar bütün əhali istehlakçılarının aprel ayında sayğac oxunduğu gündən sonrakı iki hesabat ayı üçün istehlak etdikləri elektrik enerjisinə şamil edilir. Hesabat ayı üçün istehlak edilən elektrik enerjisi dedikdə ardıcıl 30 (otuz) təqvim günü ərzində istifadə edilmiş elektrik enerjisinin həcmi nəzərdə tutulur.

Pandemiya dövründə elektrik enerjisi limitinin artırılması ölkə ictimaiyyəti tərəfindən müsbət qarşılanır.

İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, işıq limitinin artırılması yaranmış məlum vəziyyətlə əlaqədar olaraq əhalinin sosial müdafiəsi ilə bağlı atılan addımlardan biridir: "Prezidentin sərəncamı ilə bağlı yaradılan İşçi Qrupu tərəfindən atılan addımların məqsədi əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsini gücləndirməkdir. Xatırladım ki, Prezident İqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edərkən işıq limitinə güzəşt olunması məsələsini qaldırmışdı.

Məlum vəziyyətlə əlaqədar olaraq əhaliyə evdə qalması tövsiyə edilib. Bununla yanaşı, iş yerlərinin əksəriyyəti də müvəqqəti olaraq dayanıb. Əhali evdə olduğu üçün kommunal xidmətlərə olan ehtiyac artıb. Belə olan halda, işıq limitinin artırılması yüksək qiymətləndirilməlidir".

***Günel CƏLİLOVA***

**Koronavirus pandemiyası ilə bağlı olan belə həssas və məsuliyyətli bir dönəmdə, sözsüz ki, Qafqaz Müsəlmanları İdarəsi və onun sədri Şeyxülislam Allahşükür Paşazadənin də mövqeyi, çağırışları, ümumiyyətlə prosesə fəal surətdə qoşulmasını olduqca vacib sayanlar var.**

# Şeyxə müraciətlər hələ cavabsız qalır - 1500 nəfərin adambaşına 4500 manatı niyə bu günlərdə ölkəmizin özünə qalmasın...

## *Tural İrfan: "Bütün nəzir pulları da koronavirusla mübarizəyə sərf edilməlidir"*



Milli Məclisin üzvü, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov özünün "Facebook" səhifəsində bu mövzu ilə bağlı dindar vətəndaşlarımıza, eləcə də Şeyxülislam Allahşükür Paşazadəyə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya çağırış xarakterli müraciət ünvanlayıb. Deputat öz paylaşımında məşhur "91-lər"-dən olan professor Əjdər İsmayılovun Şeyxülislam Allahşükür Paşazadəyə və Mübariz Qurbanlıya müraciətini önə çəkərək, onun çağırış və təkliflərini yüksək qiymətləndirib və dəstəkləyib.

Qeyd edək ki, Ə.İsmayılov öz müraciətində indiki çətin günlərdə Həcc ziyarətinə ayrılmış vəsaitin ölkəmizdə olan kimsəsiz, xəstə, aztəminatlı vətəndaşlarımıza yardım üçün xərclənməsinə çağırıb: "Hörmətli Şeyx, hörmətli Sədr, bu il Həcc ziyarətinin qiymətinin 4490 ABŞ dolları müəyyən edildiyi və 1500-ə yaxın kvotanın ayrıldığı mətbuatdan hamımıza məlumdur. Zənnimcə, Vətənin və bəşəriyyətin belə ağır zamanında sizlər həmin zəvvarlara müraciət etsəniz, Həcc ziyarətinə ayrılmış o məbləği belə ağır bir zamanda Vətəndə olan kimsəsiz, aztəminatlı, xəstə olub müalicəyə vəsaiti olmayanlara, ödənişə ehtiyacı olan tələbələrə, bir sözlə - ehtiyacı olan insanlara tərəddüd etmədən ödəyərlər..." Allahşükür Paşazadədən hələlik bu müraciətlərə cavab gəlməyib. Edilən təklifə ilahiyyatçıların münasibəti necədir?

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu təklifi tam olaraq dəstəkləmək lazımdır:"Bu gün dünyada tüğyan edən, habelə ölkəmizdə də yayılmış koronavirus pandemiyası ilə əlaqədar demək olar hər kəs əlindən gələn maddi, mənəvi dəstəyini əsirgəmir. Lakin təəssüflər olsun ki, bəzən özünü haqq, ədalət, Allah adamı sayanların, hətta böyük dini rütbə həvalə edilən adamların bir çoxu belə hallarda passiv iştirak edir. Mən Qafqaz Müsəlmanları İdarəsinin sədri professor Allahşükür Paşazadənin ölkəmizdə yaradılmış "Koronavirusla Mübarizə Fondu"na digər dindarlara da nümunə olaraq müəyyən məbləğ ödəyəcəyini gözləyirdim. Lakin təəssüf ki, bunu görmədik. İndi də Həcc ziyarəti üçün xərclənən və xərclənməli olan vəsaitin bu xəstəliklə mübarizəyə sərf olunması dini cəhətdən vacibdir. Qurana və Peyğəmbər hədislərinə görə, hansısa bir fövqəladə hal baş verərsə, şəriət qanunları icra edilməyə bilər. Dini hökmlər qüvvəsini müvəqqəti olaraq təxirə sala bilər. O cümlədən, Həcc ziyarəti də buna daxildir. Və vacibdir ki, o məqsədlə əldə olunan, toplanan, ayrılan pullar mövcud problemin həlli üçün sərf edilsin. Habelə, bütün nəzir pulları da koronavirusla mübarizəyə sərf edilməlidir. Bu, dinin hökmüdür.

Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri bu gün xalqımıza nümunə olmalıdır. Səxavətliliyin, hacılığın, dindarlığın, vicdanlı olmağın bariz nümunəsini yaratmalıdır. Bu vəziyyət heç də 1990-cı ilin 20 yanvar hadisələrindən geri qalmır. Fərqlər olsa da, xalqımıza zərər-ziyan baxımından eynidir. Din adamları belə bir gündə də xalqın işinə yaramayacaqlarsa, hansı gündə bu xalqa lazımdırlar? Hesab edirəm ki, Həcc ziyarəti üçün sərf edilən vəsait müxtəlif dezinfeksiya və imkansız şəxslərə yardım məqsədilə sərf edilməlidir. Allahın, dinin, Quranın, İslamın da tələbi budur".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Koronavirus təhlükəsinin yaratdığı qlobal böhran qarşısında bir sıra inkişaf etmiş Qərb dövlətləri aciz qalıb və bunu etiraf etməkdan çəkinmirlər. Epidemiya hər bir dövlətin idarəetmə sisteminin effektivliyi və iqtisadi dayanıqlılığını sınağa çəkməklə yanaşı, digər məsələlərə də təsir edir.**



# Koronavirusla müharibə dövründə də barışmaz müxalifətçilikdə dəyişiklik yoxdur, üstəlik, dövlət tədbirləri də hədəfə alınır...

## *Vüqar Rəhimzadə: "Sözügedən dairələrin apardıqları qaralama kampaniyası onların xəstə təfəkküründən irəli gəlir"*

Azərbaycan nümunəsində görürük ki, ölkə rəhbərliyinin COVID-19 pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində həyata keçirdiyi strateji tədbirlər öz sistemliyi ilə fərqlənir. Verilmiş bütün qərarların mərkəzində ölkə vətəndaşının təhlükəsizliyi, sağlamlığı və rifahının yüksəldilməsinin təmin edilməsi dayanır. Dövlət başçısının sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Pandemiyanın törətdiyi fəsadları aradan qaldırmaq üçün dövlət büdcəsindən böyük həcmdə vəsait ayrılıb.

Ancaq Azərbaycanın koronavirusla uğurlu mübarizə aparmasına rəğmən, radikal müxalif mövqedən çıxış edən ənənəvi dairələr qaralama kampaniyası aparmaqda davam edirlər. Nəinki qaralama kampaniyasını davam etdirirlər, hətta koronavirus əleyhinə olan tədbirləri gözdən salmağa çalışırlar. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu istiqamətdə görülən işləri yüksək qiymətləndirdiyi halda, radikallar qara yaxmaqla məşğuldurlar.

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, sözügedən dairələrin apardıqları qaralama kampaniyası onların xəstə təfəkküründən irəli gəlir: "Azərbaycan dövləti koronavirusla mübarizədə kifayət qədər ardıcıl və kompleks tədbirlər görür. Deyərdim ki, dünyada ən nümunəvi və sistemli işlər Azərbaycanda görülür. Bunu danmaq ədalətsizlik olar. Əhalinin aztəminatlı təbəqəsinin sosial vəziyyəti və digər məsələlərlə bağlı ölkədə görülən işlər genişmiqyaslıdır. Virusa yoluxan xəstələr ən yüksək səviyyədə müalicə edilir, karantinə alınan şəxslərə hər cür yardım olunur. Bunun nəticəsidir ki, Azərbaycanda digər ölkələrlə müqayisədə virusa yoluxanların sayı azdır. Sözügedən nəticə görülmüş qabaqlayıcı tədbirlərin sayəsində əldə olunub. Ancaq xəstə siyasi təfəkkürə malik olan radikal dairələr bütün bunları gözdən salmağa çalışırlar. Bu onu göstərir ki, onların yanaşmasında, müəyyən mənada, anormallıq var. Onlar öz çirkin siyasi məqsədlərini reallaşdırmaq üçün Azərbaycan dövlətinin gördüyü bütün işləri ləkələmək istəyirlər. Ona görə də Azərbaycan dövləti bu istiqamətdə hansı işlər görsə, bu qüvvələr onu gözdən salmağa çalışacaqlar. Çünki həmin radikal dairələr ancaq öz mənafelərini düşünürlər. Bununla belə, onlar xaricdən idarə olunurlar. Hansı sifariş verilirsə, onu icra edirlər. Ona görə də sözügedən qüvvələr xəyanətkardırlar".

*"Onlar öz çirkin siyasi məqsədlərini reallaşdırmaq üçün dövlətin gördüyü bütün işləri ləkələmək istəyirlər"*

***Vidadi ORDAHALLI***

**Koronavirusun çökdürdüyü Ermənistan üzləşdiyi çətinliklər fonunda onu indiyə qədər ayaqda saxlayan Rusiyanı getdikcə daha çox ittiham etməyə başlayıb. Belə görünür ki, hadisələrin indiki inkişaf axarı İrəvan və Moskvanın münasibətini əhəmiyyətli dərəcədə pisləşdirəcək. Elə erməni ekspert Aşot Markosyan da məsələyə eyni prizmadan yanaşır**

# Moskva İrəvanı rəsmən tək qoydu... Avropa öz başının hayında, pandemiyanın dağıdıcı təsiri köməksiz Ermənistanı daha dərin iqtisadi böhrana sürükləyir

O bildirir ki, koronavirus epidemiyası ilə əlaqədar dünya iqtisadiyyatı çöküş yaşayır və Ermənistan da bundan kənarda qala bilməz. Lakin ekspert virusun erməni iqtisadiyyatına daha dağıdıcı təsir göstərdiyini vurğulayır.

Aşot Markosyan xatırladır ki, Ermənistanda epidemiya ilə əlaqədar fövqəladə vəziyyət rejimi elan olunub və bir sıra müəssisələrin fəaliyyəti məcburi şəkildə dayandırılıb. Bunun ardınca Ermənistan hökuməti koronavirus pandemiyası səbəbindən tətbiq olunan fövqəladə vəziyyətin uzadılması barədə qərar qəbul edib. Ermənistan Nazirlər Kabineti tərəfindən fövqəladə vəziyyətin mayın 14-nə qədər uzadıldığı bildirilib. Bu isə azsaylı istehsal və xidmət sahələrinin fəalyyətini hələ bir müddət də dayandırması deməkdir.

Bütün bunlara paralel olaraq, Ermənistanda qazın qiymətinin bahalaşması barədə söz-söhbətlər aktivləşib. Məlum olduğu kimi, Ermənistan baş nazirinin müavini Mher Qriqoryan "Qazprom"un rəhbəri Aleksey Millerə məktubla müraciət edib ki, qiymət məsələsi yenidən nəzərdən keçirilsin, çünki dünya enerji resursları bazarında baş verənlər sirr deyil. Amma bu müraciətdən sonra "Qazprom Armenia" qazın qiymətinin bahalaşması tələbilə çıxış edib. Ermənistanda qazın qiymətinin dəyişdirilməsinə hansı komponentlərin təsir edəcəyinə dair Aşot Markosyan qeyd edib:"Bilirik ki, Ermənistanın öz yanacaq və enerji resursları yoxdur, əslində qaz və digər enerji resurslarının idxalı respublika sərhədlərindən kənarda edilir. Rusiya indiki halda qazın qiymətini qaldırmaqla Ermənistanı sıxışdırır və bu, müttəfiqlik hesab edilə bilməz. Bu səbəbdən ölkəmizlə qaz istehsal edən ölkə və ya ölkələr birliyi arasında formalaşan qiymət sistemi müəyyən hallardan asılıdır. Bu halların yaranması müəyyən formada təbii resursların qiymətinə də təsir edir".

"1in.am" portalı da yazır ki, İrəvanın Kremlə qarşı çıxmaq niyyəti Moskvanı daha da qəzəbləndirib və indi Rusiya Ermənistandan üz döndərir:"Koronavirus dünyanın bütün ölkələri üçün problemlər yaradıb. Hazırda Ermənistan-Rusiya gündəliyində əsas məsələ bəlkə də qaz problemidir və bu, Ermənistan üçün həyati əhəmiyyət daşıyır". O da xüsusi vurğulanır ki, yaranmış qeyri-müəyyənlik Ermənistanı təhdid edən iqtisadi böhranı daha da genişmiqyaslı edir:"Rusiyanın Ermənistana qarşı müttəfiq öhdəlikləri varsa, açıq şəkildə başa düşməlidir ki, qazın qiymətinin bahalaşması Ermənistanın iqtisadiyyatını çöküş astanasına sala bilər. Digər tərəfdən, qaz problemi Moskvanın İrəvana qarşı təzyiq üçün istifadə etdiyi yeganə məsələ deyil. Rusiya Azərbaycanla hərbi-texniki əməkdaşlıq istiqamətlərinin geniş çərçivəsində, eləcə də aviasiya təchizatı istiqamətində danışıqlar aparmağa hazırdır". Portal yazır ki, Ermənistan Avrasiya İqtisadi Birliyindən də istədiyi yardımı ala bilmir. Bu baxımdan da Avrasiya İqtisadi Birliyi Avropa Birliyindən fərqlənir: "Avropa Birliyi (AB) koronavirus pandemiyasının nəticələrinə qarşı gördüyü antiböhran tədbirləri çərçivəsində 500 milyard avro ayıracaq, bunun 300 milyardı kiçik və orta biznesin dəstəklənməsinə yönəldiləcək. AB baxımından, koronavirus böhranının müxtəlif xarakterli nəticələri oldu - böhran həm texniki, həm siyasi, həm də sosial-psixoloji problemləri ortaya çıxardı. İş ondadır ki, böhran bir zamanlar vahid olan Avropanı parçalanmağa, sərhədləri bağlamağa məcbur etdi. İtaliya ona yetərli dəstək vermədiyi üçün Avropadan açıq şəkildə şikayətə başladı. Yarım trilyon avroluq proqramla böhranın nəticələrinin ağırlığını neytrallaşdırmaq və paralel olaraq, Avropada sosial-psixoloji atmosferi bərpa etmək mümkün olacaqmı? Bu suala dəqiq cavab vermək praktiki mümkün deyil, çünki dünyanın koronavirusla necə, nəhayət, hansı rejimdə mübarizə aparacağı və postkoronavirus perspektivləri nöqteyi-nəzərincə qeyri-müəyyənlik, hələ ki, davam edir. Bununla birlikdə, AB tənəzzülü durdura bildi. Söhbət iqtisadi tənəzzüldən deyil, sosial-psixoloji və siyasi tənəzzüldən gedir. Ancaq bu, çağırışların ikinci mərhələsinin gəlməyəcəyinə təminat vermir. Bu mərhələdə AB, deyəsən, özünə gəlib və idarəçiliyə başlayıb. Bu fonda Ermənistanın olduğu yerdə vahid iqtisadi məkan və həyat qabiliyyətli struktur olma iddiası ilə çıxış edən Avrasiya İqtisadi Birliyində (AİB), - praktiki koronavirus ondan bir şey qoymayıb, - durumun necə olması maraqlıdır. Bu mənada, mövcud durumda AİB böhranı idarə etmək qabiliyyətini göstərə bilməsə də, heç olmasa, "həyat əlamətləri" göstərməlidir".




Bu arada, biz görürük ki, epidemiya artıq bir neçə həftə ərzində bütün dünyanı bürüyüb, AİB üzvü olan dövlətlər arasında isə, praktiki olaraq, yüksək səviyyəli təmaslar, hətta nazirlər səviyyəsində müzakirələr belə, yoxdur. Üçüncü ölkələrdən gələn bir sıra əhəmiyyətli mallara qoyulan gömrük rüsumlarının sıfırlanması haqqında qərar qəbul edilib. Deyilənə görə, mühüm qərardır, ancaq bu, çox güman ki, "suda boğulmamaq" üçün verilən qərardır. Ancaq sudan necə çıxmaq məsələsi AİB-də müzakirə belə edilmir. Bu da həmin ittifaqın nə olduğunu ən yaxşı formada izah edən əlamətdir.

**O, Rusiyanın geopolitik iddialarını təmin etmək vasitəsidir, lakin böhran şəraitində Rusiya üçün yükə çevrilir. İddialar nə qədər olarsa, bu iddiaların alət və vasitələri üçün məsuliyyət də o qədər olmalıdır. Halbuki, bu mənada, Moskvanın məsuliyyət resursu yoxdur və üstəlik o, hətta əməli olaraq öz sərəncamında olan vasitələrin ümumi maraqlara xidmət etməsindən - enerji resurslarının, o cümlədən qazın qiymətinin endirilməsindən imtina edir. Bu vəziyyət Ermənistan üçün ciddi problemdir və İrəvanı daha çox Qərbə baxmağa vadar etməlidir". Lakin məsələ burasındadır ki, Qərbdə də Ermənistana yaxın durmaq istəyən yoxdur.**

***Nahid SALAYEV***

**Ermənistanın baş naziri Nikol Paşinyan koronavirus pandemiyasından da siyasi məqəsədləri üçün istifadə etməyə başlayıb. Bu müddət ərzində onun atdığı addımlara nəzər salsaq, pandemiyanın onun işinə necə yaradığına şahidlik edərik. Məhz bütün dünyada koronavirusla bağlı kütləvi tədbirlərin təxirə salındığı zamanda Paşinyanın təkidi və planı əsasında qondarma "DQR"-də saxta "parlament və prezident" seçkiləri keçirildi.**

# Paşinyan koronavirusdan siyasi sui-istifadədə lider mövqedə - seçki keçirir, fövqəladə vəziyyət elan edir, rəqiblərini işdən çıxarır...





## *Elşən Mustafayev: "Dünyanın hələ heç bir ölkəsində koronavirusa görə hansısa səfiri geri çağırmayıblar"*

Paşinyan öz adamını ora rəhbər təyin etmək üçün hətta ikinci tur şousuna belə getdi. Ermənistan kimi kiçik ölkədə karantinlə vəziyyətə nəzarətin mümkünlüyü olduğu halda, o, ölkədə fövqəladə vəziyyət elan etdi. Son qərarı isə siyasi rəqiblərini bu adla işdən azad etmək oldu.

Erməni medasının yaydığı məlumata görə, Ermənistan prezidenti Armen Sarkisyanın fərmanı və baş nazir Nikol Paşinyanın təklifi ilə İtaliya və Maltadakı səfir Viktoriya Bağdasaryan geri çağrılıb. Qeyd edək ki, koronavirus səbəbilə Ermənistanın Braziliyadakı səfiri Aşot Qaloyan da geri çağırılıb. Hər iki səfirin köhnə komandanın adamı olduğu söylənilir. Paşinyana müxalif mövqedə olan erməni KİV-i hökumətin bu qərarlarını kəskin tənqid edir. Onların qənaətincə, qlobal koronavirus pandemiyası kontekstində bu qərarın səbəbi siyasidir və koronavirus səfirin geri çağırılmasına səbəb ola bilməz. Paşinyanın koronavirusdan da öz siyasi məqsədləri üçün istifadə etməsi ilə bağlı ekspertlər nə düşünür?

Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistan baş nazirinin addımlarında doğrudan da qeyri-müəyyənlik var:"Pandemiyanın ilk günlərində Ermənistan hökumətinin başçısı Paşinyan koronavirus təhlükəsinə ciddi yanaşmırdı. Bu, ölkədə böyük həyəcan doğurdu. Hətta Nikol Paşinyan insanlara koronavirusun təhlükəli bir virus olmadığını demişdi. Dünyada hər kəs bunun ciddi bir təhlükə olduğunu bilib müxtəlif tədbirlər gördüyü halda, Paşinyan koronavirusun qripə bənzər bir şey olduğunu deyirdi. Sonra Paşinyan səhvini anladı və tamamilə fərqli siyasət yürütməyə başladı. O bilir ki, Ermənistan iqtisadiyyatı onsuz da zəifdir. Xalqın bu vəziyyətdə tələbləri daha da arta bilər. Ona görə də siyasi situasiyanı tam nəzarət altında saxlamaq üçün fövqəladə vəziyyət elan etdi. Halbuki, daha yumşaq qadağalarla bunu ötüşdürmək olardı. Bu vəziyyətdə, Paşinyan hətta qondarma qurumdakı mövqelərini də saxta "seçki" ilə bərkitdi. Son mərhələdə isə keçmiş hakimiyyətin dönəmində təyinat alan səfirləri geri çağırır. Çox absurd bir qərardı. Dünyanın hələ heç bir ölkəsində koronavirusa görə hansısa səfiri geri çağırmayıblar. Maraqlıdır ki, Paşinyan məhz koronavirusun daha çox yayıldığı İtaliyadakı səfiri geri çağırtdırıb.

Bu addımları pandemiya ilə bağlamaq sadəcə gülüncdür. Hamısında siyasi məqsəd var. Bununla Paşinyan öz siyasi rəqiblərini neytrallaşdırır və hakimiyyətinin təhlükəsizliyini qoruyur. Bu bir daha sübut edir ki, Ermənistanda siyasi addımlar xalqın təhlükəsizliyi üçün deyil, hakimiyyətin qorunması məqsədilə atılır".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Rusiya iyunun 30-a qədər Ermənistana soğan, sarımsaq, çovdar, düyü, qarabaşaq yarması, dənli bitkilər, dənli bitkilərdən hazırlanmış ərzaq məhsulları, əzilmiş və əzilməmiş soya və günəbaxan toxumlarının ixracına məhdudiyyətlər qoyub.**

*"Hazırkı mərhələdə məhdudlaşdırıcı tədbirlərin görülməsi bu ölkədə sosial problemlərin ağırlaşmasına xidmət edir"*

# Rusiyadan Ermənistana bəzi ərzaqların ixracına məhdudiyyətlər - Ermənistanda anti-Rusiya ovqatı yenidən körüklənir...

## *Məhəmməd Əsədullazadə: "Bu onu göstərir ki, Rusiyanın Ermənistan hakimiyyəti ilə çox ciddi siyasi problemləri var"*

Sözügedən məsələ ilə bağlı məlumat yayan erməni mediası yazır ki, ixracı qadağan olunan məhsulların siyahısı bununla bitməyəcək. Digər ərzaq məhsullarının da Ermənistana ixracına məhdudiyyət qoyula bilər. O da məlum olub ki, Rusiya günəbaxan ixracatını, ümumiyyətlə, qadağan etməyi düşünür. Krasnodar və Altay vilayəti, Rostov, Volqoqrad və Oryol bölgələrinin ixracatçıları qadağanı birmənalı qarşılamasa da, verilən qərara hörmətlə yanaşacaqlar. Erməni mediası həm də lavaş dərdinə düşüb. Onlar hesab edirlər ki, dənli bitkilərin idxalına qoyulan məhdudiyyət erməni milli mətbəxinə ziyan vuracaq.

Bütün bunlarla yanaşı, erməni mediası Rusiyanın bu addımını siyasi motivlərlə əlaqələndirərək, bunun Ermənistana növbəti təzyiq məqsədi daşıdığını iddia edir. Hesab edirlər ki, əslində, bu qərarın arxasında siyasi mötivlər dayanır. Bu minvalla Ermənistan hakimiyyətinə təzyiq göstərilir. O da məlumdur ki, belə məlumatlar Ermənistanda anti-Rusiya ovqatını bir qədər də artırır.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, baş verənlər ciddi məqamlardan xəbər verir: "Bu onu göstərir ki, Rusiyanın Ermənistan hakimiyyəti ilə çox ciddi siyasi problemləri var. Kreml Baş nazir Nikol Paşinyanın həyata keçirdiyi siyasəti qəbul etmir və onun "Qarabağ klanı"na qarşı siyasi repressiyalarını özünə qarşı təhdid kimi qiymətləndirir. Ona görə də Paşinyanın siyasi hakimiyyətini laxlatmaq üçün enerji və iqtisadi məhdudiyyətlərə əl atır. Qazın qiymətinin qaldırılması və Rusiyadakı lobbi təşkilatlardan bu ölkəyə maliyyə yardımının qarşısının alması, ardınca son günlərdə tətbiq edilən qadağalar təsadüfi deyil. Kənd təsərrüfatı məhsullarının ixracının məhdudlaşdırılması Ermənistanda sosial vəziyyətin ağırlaşdırılmasına hesablanıb. Rusiya bununla Paşinyana ciddi mesaj vermiş olur.



Bundan əlavə, Ermənistan Rusiya üçün ağır yükdür və Qarabağ münaqişəsi fonunda İrəvan müəyyən qədər Moskva üçün prioritet əhəmiyyət kəsb edib. Hazırkı mərhələdə məhdudlaşdırıcı tədbirlərin görülməsi Ermənistanda sosial problemlərin ağırlaşmasına xidmət edir. Təbii ki, bu, Ermənistanda ciddi narazılığa səbəb olmaqdadır. Ona görə də Rusiyanı xəyanətdə günahlandırırlar. Son illər Rusiya-Azərbaycan əlaqələrinin dinamik inkişafı Ermənistanda da ciddi panikaya səbəb olur. Hesab edirəm ki, Nikol Paşinyan Rusiya üçün arzuolunmaz bir fiqurdur və ona görə də Ermənistana bu qadağalar tətbiq ediləcək".

***Vidadi ORDAHALLI***

# Təcavüzkar Ermənistan rejimi dünyanı saymadı - qondarma qurumda seçki oyunu davam etdirildi...

**Qondarma "Dağlıq Qarabağ Respublikasında (DQR)" "prezident" seçkilərinin ikinci turu keçirilir. Qeyd edək ki, dünya birliyinin qondarma "seçkilərin" birinci turu ilə bağlı verdiyi sərt etiraz bəyanatlarına baxmayaraq, Ermənistanın təkidilə bu şou davam etdirildi. Seçkilərə etirazla dolu münasibətlərdə bildirilirdi ki, proses qeyri-legitimdir.**

Ancaq bəyanatlara məhəl qoymamağa öyrəşən ermənilər ikinci tur seçkiləri də keçirməklə dünya birliyinin narahatlığına saymaz yanaşdıqlarını bir daha nümayiş etdirdilər.

Namizədlərdən biri olan Masis Mayilyan tərəfdarlarını seçkini boykot etməyə çağırıb - bu o deməkdir ki, rəqibi Araik Arutyunyanın qələbəsi, demək olar ki, qaçılmazdır. Qeyd edək ki, "seçkilərin" qlobal pandemiya sayılan koronavurusun yayıldığı dönəmdə keçirilməsi dünya birliyinə olan sayğısızlığın daha bir nümunəsidir. Üstəlik, səsvermə aşkar edilmiş koronavirus infeksiyası səbəbindən "DQR"-də tətbiq olunan fövqəladə rejim şəraitində aparılır. Mövcud "DQR prezidenti" Bako Saaakyanın adamı sayılan keçmiş "baş nazir" Araik Arutyunyan 49,6%, onun əsas rəqibi - "xarici işlər naziri" Masis Mayilyan 26,4% səs toplayıb. Elə ilk turda qalib olmaq üçün Arutyunyana təxminən 600 səs çatmayıb. Ortada defakto mübarizə yoxdur. Aprelin 5-də Masis Mayilyan koronavirusun yayılması təhlükəsini əsas gətirərək, tərəfdarlarını ikinci turu boykot etməyə çağırıb. Belə çıxır ki, Arutyunyanın cəmi bir neçə yüz səsinin çatmaması səbəbindən birinci mərhələdə qalib gələ bilməməsi "seçki" oyunudur. Ermənilər "seçki"lərin guya demokratik keçdiyini və Arutyunyanın "seçki"ləri bir neçə yüz az səslə uduzduğunu göstərməklə, guya hər bir seçici səsinin nəzərə alındığını göstərmək istəyirlər. İkinci turun keçirilməsi və ümumiyyətlə, bu turun olması da oynanılan oyunun, quraşdırılan ssenarinin tərkib hissəsidir. Lap əvvəldən, "seçki"nin birinci turundan da bəlli idi ki, Paşinyanın adamı olan Arutyunyan "seçki"lərdə "qələbə" qazanaraq qondarma qurumun başçısı seçiləcək. Amma ssenariləşdirilmiş seçki oyununa getdilər. İrəvan tərəfindən hazırlanmış həmin ssenaridə kimin nə qədər səs alacağı, kimlərin neçə səslə ikinci tura keçəcəyi öz əksini tapmışdı. Koronavirusla bağlı dünyada bütün kütləvi tədbirlərin təxirə salınmasına baxmayaraq, özlərini "mədəni" xalq adlandıran ermənilər sübut etdilər ki, öz maraqları olan yerdə hər şeyin üstündən xətt çəkməyə hazırdırlar. Birinci tur ərəfəsində ermənilər iddia edirdilər ki, guya Dağlıq Qarabağda koronavirus yoxdur. İndi isə koronavirusun olması, hətta onun həndəsi silsilə ilə artması barədə xəbərlər yayılmaqdadır. Göründüyü kimi, ermənilər bu məsələdə kifayət qədər özlərinə, olmayan imiclərinə böyük zərbələr vurublar və onsuz da nəticəsi tanınmayan, təyinatlı, antidemokratik şəraitdə keçirilən "seçkilər" ermənilərə gözlədikləri nəticələri verməyəcək.

Artıq "seçkinin" ikinci turuna etirazlar onun nəticəsi elan edilməmiş başlayıb. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi işğal olunmuş Dağlıq Qarabağda ikinci turu aprel ayının 14-də keçirilən qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "Böyük Britaniya ikinci turu aprel ayının 14-də keçiriləcək Dağlıq Qarabağdakı qondarma "prezident seçkilərini" tanımır. Böyük Britaniya bir daha ATƏT-in Minsk Qrupu və onun həmsədrlərinin sülh prosesindəki rolunu dəstəklədiyini vurğulayır. Biz beynəlxalq hüququn bütün dünyada tanınan prinsip və normalarının əhəmiyyətini vurğulamaqla bərabər, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləyirik. Biz Azərbaycan və Ermənistanı münaqişənin sülh yolu ilə həll olunması və etimadın yaradılması üçün səylərini sürətləndirməyə çağırırıq". Digər gülməli məqam isə Azərbaycanın işğal altındakı ərazilərində mövcud olan separatçı rejimin koronavirus təhlükəsi ilə əlaqədar olaraq "fövqəladə rejim"in tətbiqinə başlaması ilə bağlıdır. B.Saakyanın "mətbuat xidməti" bildirib ki, separatçı lider Dağlıq Qarabağdakı əhaliyə müraciətlə, koronavirus pandemiyasından qorunmaq üçün fövqəladə rejimin tətbiqi ilə bağlı "fərman" imzaladığını elan edib. Fövqəladə rejimlə əlaqədar olaraq qondarma qurumun "dövlət naziri" Qriqoriy Martirosyan komendant təyin edilib. Tətbiq olunan rejim 30 gün - 12 apreldən 12 mayadək davam edəcək. Erməni mediası 14 apreldə Dağlıq Qarabağda qondarma rejimin "prezidenti" postuna keçiriləcək "seçki"lərlə (ikinci tur) bağlı məsələyə də aydınlıq gətirməyə çalışıb. Bildirilib ki, Qarabağdakı qondarma qurumun rəhbərliyi "seçki"lər günü bütün sanitar normalara əməl olunacağını deyib. Bütün bu biabırçılıqlar sübut edir ki, Ermənistan "DQR"də ürəyi istəyən şounu düzəldir.



**Bir daha subut olundu ki, belə rejimlərlə bəyanat dilində yox, konkret təzyiqləri tətbiq etməklə danışmaq lazımdır. Separatçıları dayandırmaq üçün daha sərt metodlar işə salınmalıdır. Bu məsələdə əsas məsuliyyət ATƏT-in Minsk Qrupunun üzərinə düşür. Daha dəqiq desək, həmsədr dövlətlər bunu dayandıra bilər. Ancaq təəssüflər olsun ki, hər üç həmsədr Ermənistanla bu və ya digər dərəcədə yaxın münasibətlərə malikdir. Hətta ATƏT Minsk Qrupu adından verilən bəyanatdan başqa biz həmsədr ölkələrin "seçkini" pisləyən bəyanatına rast gəlmədik. Məhz buna görə də, separatçılar ikinci dəfə dünyanı saymadıqlarını nümayiş etdirmək imkanını qazandılar.**

*Məhəmmədəli QƏRİBLİ*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan Azərbaycan qarşısında aciz duruma düşdüyünü etiraf edir - Moskvanın Bakıya hərbi texnika satışı İrəvanda yeni təşviş dalğası yaratdı...

**Dünyada yeni iqtisadi böhranın başlanmasına və bunun ölkələrə müxtəlif cür təsir etməsinə rəğmən, hərbi sahədə dövlətlər planlarından geri çəkilmir. Dünya miqyasında ölkələr və hərbi birliklər tərəfindən keçirilən təlimlər, əsgəri texnikanın alış-satışı da qeyd olunanların təsdiqidir.**

Bu mənada, müharibə vəziyyətində olan Azərbaycanın da təlimlər keçirməsi, hərbi texnika alması tamamilə təbii qarşılanır.

Xatırladaq ki, cari il ərzində Azərbaycan hərbi texnika alışına 1 milyard dollara qədər vəsait sərf etməyi planlaşdırır. Artıq o da məlumdur ki, bu vəsaitin müəyyən hissəsi qonşu Rusiyadan yeni hərbi təyyarələrin alınmasına sərf olunacaq. Bu fonda o da sirr deyil ki, Rusiya özü də Azərbaycana hərbi təyyarələrin tədarükünü realizə etməyə hazırdır. O da bəllidir ki, söhbət Su-35 və MiQ-35 qırıcı təyyarələrindən gedir. Bu məsələ artıq neçə gündür Ermənistanda da aktual şəkildə müzakirə olunur. İndiki halda Moskvanın Bakıya hərbi texnika satışını İrəvan özünə ciddi zərbə kimi dəyərləndirir. Mövzuya yenidən toxunan Ermənistanın "Iragir.am" nəşri yazır ki, razılaşma baş tutarsa, Ermənistan-Rusiya müqaviləsinin Su-30 SM çoxfunksiyalı təyyarələrin tədarükü baxımından əhəmiyyəti heçə qədər itəcək:"Azərbaycan Ermənistanla müqayisədə Rusiyadan daha müasir təyyarələr alır. Özü də burada say baxımından da Azərbaycanın önə çıxması gözlənilir. Moskva ilə Bakı arasında yeni sövdələşmənin əhəmiyyəti regionaldır və əks hücumun imkanlarının genişlənməsi hesabına erməni tərəfinin susdurulması və sabitliyin təmin edilməsinə yönəlib Belə olan halda Azərbaycana yeni döyüş təyyarələrinin satılması Ermənistan üçün ciddi zərbədir. Əlbəttə ki, Rusiyaya pul lazımdır, baxmayaraq ki, təyyarələrin satışından ala biləcəkləri pul Rusiyanın ehtiyac duyduğu ümumi miqdarda çox cüzidir. Ancaq bu vəziyyətdə əsas məqam pulun həcmi deyil, onun təhlükəli vəziyyətə gətirməsidir. Aprel döyüşlərindən əvvəl Moskva ermənləri siyasi imkanlar əldə etdiyinə inandıraraq Bakıya milyardlarla dollar silah verdi. Realda isə mənzərə tam əksinə idi, Bakı Rusiyadan siyasi haqq qazandı. Hazırda bunun təmiz bir ticarət olduğu və Moskvanın Ermənistana siyasi imkanlar qazandırdığı barədə danışmaq həm Ermənistan, həm də Rusiyanın özü üçün təhlükəli, çox təhlükəli bir aldanma demək olacaq. Bakını bu cür strateji əhəmiyyətli silahlarla təmin etmək barədə qərar verən insanlar Rusiya dövlətçiliyinə qarşı qərar qəbul edirlər. Realda, xüsusilə aprel döyüşlərindən çıxarılan dərs kontekstində Rusiyadan Bakıya təyyarə satılması məsələsi yox, Ankara və Bakıya rus dövlətçiliyinin satılması məsələsi qoyulub və bu qərar, praktik olaraq, məhz bu demək olacaq".

Erməni siyasi şərhçi Akob Badalyan da qeyd edir ki, illər əvvəl Moskva və İrəvanın Su-30SM çoxfunksiyalı təyyarəsinin sövdələşməsini müzakirə etdiyi barədə məlumat yayıldıqda Rusiyanın Su-35 satmaq üçün Azərbaycanı da maraqlandırmağa çalışdığı barədə ekspert rəyləri yayılmışdı:"Məlumdur ki, keçən il Rusiya Ermənistana Su-30SM qırıcı təyyarələri vermişdi və dekabr ayında təyyarələrin birinci partiyası İrəvan aerodromuna çatdırılmışdı. Ermənistan müdafiə naziri David Tonoyan ikinci partiyanın da 2020-ci ilin ilk aylarında gətiriləcəyini bildirmişdi. İrəvan bunu, rəqibə qarşı üstünlük əldə etməklə yanaşı, hərbi-siyasi tarazlıq səviyyəsini və erməni tərəfinin Azərbaycanın gücünü yatırmaq qabiliyyətini xeyli artıran hava hökmranlığı strategiyası çərçivəsində əldə olunan uğur kimi qiymətləndirirdi. Yanvar ayında Tonoyan yaxın aylarda Ermənistana yeni bir dəstənin gələcəyini açıqladı. Əslində, Rusiya Ermənistana tədarükü qiymətləndirərək, digər əli ilə Azərbaycanı silahlandırma prosesini yenidən davam etdirir. Ruslar aprel döyüşlərini yetişdirərkən, Azərbaycanı dişlərinədək silahlandırmanın ilk mərhələlərində dedikləri kimi, "Bu biznesdir, şəxsi heç bir şey yoxdur". Əlbəttə ki, neft bazarında kritik günlər yaşayan Rusiya hazırda hərbi sənaye sifarişçilərinə ehtiyac duyur, ancaq aprel döyüşlərindən əvvəl sadəlövh və hətta rüsvayçı olduğu kimi, indi hər şeyi biznesə aid etmək sadəlövhlük olardı. Rusiya üçün Azərbaycan Kremlin birbaşa Ankara və Tehranla rəqabət etdiyi bir məkandır və geniş mənada yeni dünya nizamının Amerika-Çin bölgüsü prosesində mümkün qədər iştirak etməyə çalışır. Bu baxımdan Rusiya Azərbaycana münasibətdə, əlbəttə ki, siyasətindən geri çəkilməyəcək. Bütün problem ondadır ki, hər iki halda Moskva Ermənistanı və ya erməni məsələsini "resurs" hesab edir. Erməni mühitində bir az zəiflətmək kifayətdir, Rusiya dərhal bu vəziyyətdən istifadə etməyə çalışır. Hazırda Ermənistan koronavirus epidemiyası, xüsusən onun iqtisadi və siyasi aspekti ilə qarşı-qarşıyadır. Üstəlik, bu şəraitdə İrəvan Moskva qarşısında qazın qiymətinin azaldılması və əslində məlum biabırçı qaz müqaviləsinə yenidən baxılması məsələsini qaldırır. Məsələni Paşinyan Putinlə telefon danışığında da müzakirə edib.

Budur, Azərbaycan mətbuatında Rusiyanın Bakıya yeni nəsil hərbi təyyarə satmağa hazır olduğu barədə açıqlamalar yayılır. Ancaq İrəvanın qaz qiymətlərinin aşağı salınması ilə bağlı müraciətindən sonra bu məlumatın Azərbaycan mətbuatında yayımlanması təəccüblü deyil. Təəccüblü deyil, çünki bundan əvvəl illərdir Bakıdan qidalanan rusiyalı ekspertlər Rusiyanın niyə qazın qiymətini qaldırması lazım olduğunu əsaslandırmaq üçün Ermənistan mətbuatında məqalələrlə çıxış edirdilər. Görünən odur ki, Rusiyanın Azərbaycana hərbi təyyarələr verməsinin səbəbini əsaslandıracaq yeni ekspertlər ortaya çıxacaq. İstənilən halda, Rusiyadan yeni silah alışı ilə Azərbaycan daha da güclənir və bu, erməni tərəfi üçün müsbət heç nə vəd etmir".

Ekspertlər də erməni tərəfinin narazılığının əsassız olmadığını bildirir. Çünki alınacaq təyyarələr Azərbaycanın düşmənə daha sərt zərbələr vurmasına gətirib çıxaracaq. Bu xüsusda elə bu günlərdə Azərbaycan Hərbi Hava Qüvvələrində (HHQ) xidmət etmiş, hazırda ehtiyatda olan polkovnik-leytenant Rövşən Həşimov da maraqlı açıqlamalar vermişdi. Onun sözlərinə görə, Su-35 və MiQ-35 təyyarələrinin Azərbaycana tədarükü barədə aparılan danışıqlar yaxın zamanda ölkəmizin Hərbi Hava Qüvvələrinin daha da gücləndirilməsinə imkan verəcək:"Bunu daha aydın təsəvvür etmək üçün təyyarələrin uçuş-texniki xüsusiyyətləri və döyüş imkanlarına diqqət çəkmək istərdim. Hər iki tip çoxfunksiyalı və yüksək manevrli döyüş təyyarələrinin özəlliyi onların 4++ nəslinə aid olmasıdır. Bu nəsil təyyarələrə qədər istehsal olunan digər döyüş qırıcıları yalnız modernizə olunaraq onların müəyyən imkanları artırılırdı. Bu təyyarələrin üstün xüsusiyyətlərindən biri də onların maksimal uçuş uzaqlığıdır. Bu göstərici Su-35-də 4500 kilometr, MiQ-35-də isə 3500 kilometrdir. Hər iki təyyarədə hədəfləri aşkar etmək üçün yeni tip radiolokasiya stansiyaları quraşdırılıb. Açıq arxitekturası olan hər iki təyyarə lokal müharibənin aparılmasında mühüm rol oynayan radio-elektron mübarizə vasitələrindən ibarət rəqəmsal müdafiə kompleksləri ilə təchiz edilib. Bu, həmin təyyarələrə bütün növ müasir aviasiya silahlarından istifadə etmək imkanı verir.

Ən yeni texnologiyaların tətbiqi ilə istehsal edilən Su-35 təyyarəsi "hava-hava" sinfinə aid yeni R-37M səsdən sürətli raketlərdən istifadə edir və məhz buna görə də 300 kilometr uzaqlıqda olan hava hədəflərini məhv etmək imkanına malikdir. Düşmənin hava hücumundan müdafiə vasitələrinin əhatə etdiyi zonadan kənarda qalmaqla yüksək dəqiqlikli silahlarla yerüstü və suüstü hədəflərə effektiv zərbələr endirməyə malik olan Su-35 təyyarəsi 12, MiQ-35 təyyarəsi isə 9 ədəd müxtəlif tipli aviasiya məhvetmə vasitələri daşımaq üçün asqı nöqtəsinə malikdir. Su-35 təyyarələri "hava-hava" tipli R-73, R-77, R-27 raketləri, "hava-yer" tipli X-25, X-29, X-38 raketləri, gəmiyə qarşı X-31, X-35, X-59 raketləri və KAB-500KR, KAB-1500KR, MiQ-35 təyyarələri isə "hava-hava" tipli R-73, R-77, R-27 raketləri, "hava-yer" tipli X-25, X-29, X-38 raketləri, gəmiyə qarşı X-31 raketləri və KAB-500L, KAB-500KR bombaları ilə silahlana bilirlər. Su-35 və MiQ-35 qırıcılarının fərqləndirici xüsusiyyətlərindən biri də uzaq məsafədə eyni vaxtda bir neçə hava hədəfinin aşkar edilməsi, izlənməsi və məhv edilməsidir.

Azərbaycan HHQ-nin bu növ qırıcı təyyarələrlə gücləndirilməsi döyüş əməliyyatları zamanı onlara ordumuzun qoşun növləri və qismlərini havadan dəstəkləməklə yanaşı, düşmənin yerüstü qoşun qruplaşmasını, hərbi və strateji əhəmiyyətli obyektlərini məhv etmək imkanı verəcək". Elə Ermənistanda da narazılıq və narahatlıq yaradan məqamlar bunlarla bağlıdır. Lakin o da faktdır ki, indiki halda Ermənistanın istənilən narazılığı hansısa əhəmiyyət kəsb etmir. Çünki bundan əvvəl də Rusiyanın Azərbaycana silah satmasına Ermənistan öz narazılığını bildirmişdi. Amma o vaxt da bunu kimsə nəzərə almadı. Elə indi də proseslərin məhz bu məcrada inkişafı gözlənilir. Nəticə isə ondan ibarət olacaq ki, Azərbaycan düşmən üzərində daha böyük hərbi üstünlük qazanacaq. Təbii ki, bu da Dağlıq Qarabağ münaqişəsinə mütləq mənada öz təsirini göstərəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Başqa türk ölkələrinə Azərbaycandan maraqlı yenilik - virus əleyhinə işləyən həkimlərin maaşları 5 dəfəyədək artırılıb

***Musa Quliyev:** "Hesab edirəm ki, bu, dövlət tərəfindən həkimlərimizin əməyinə verilən qiymət baxımından çox dəyərli faktdır"*

**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə koronavirusla mübarizə sahəsində Azərbaycan dövlətinin gördüyü işlərdən geniş bəhs edilib.**




*"...təcrübə örnəkləri başqa ölkələr üçün də gerçək nümunədir"*

Türkdilli dövlətlərin dövlət və hökumət başçılarının, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun iştirakı ilə keçirilən videokonfransda çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan dövləti koronavirusa yoluxan xəstələrin müalicəsini çox yüksək şəraiti olan xəstəxanalarda həyata keçirir. "...Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3,4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür".

Azərbaycanda koronavirusla mübarizə sahəsində fəaliyyət göstərən həkimlərə maaşının 3-5 misli qədər əməkhaqqı verilir. Bu, Azərbaycan həkimlərinin əməyinə verilən qiymət baxımından necə faktdır?

Tibb elmləri namizədi, millət vəkili Musa Q uliyev baki-xeber.com-a bildirdi ki, koronavirusun yayıldığı ilkin dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi önləyici tədbirlər, bu məsələdə ölkənin bütün tibb heyətinin, tibb işçilərinin səfərbər olunması bu virusun ölkəmizdə geniş şəkildə yayılmasının qarşısını aldı. M.Quliyevin sözlərinə görə, Azərbaycan koronavirusa qarşı mübarizə tədbirlərini Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələri əsasında qurub. Müsahibimiz vurğuladı ki, Azərbaycan dövlətinin koronavirusla mübarizə sahəsində həyata keçirdiyi bütün tədbirlər, xəstələrin yüksək səviyyədə tam təmin olunmuş xəstəxanalarda müalicə olunmasını gerçəkləşdirməsi ÜST rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilib və buna görə ÜST-in Baş direktoru Azərbaycan Prezidentinə məktub yazıb, görülən işlərə görə ona öz təşəkkürünü bildirib.

M.Quliyevin bildirdiyinə görə, koronavirusa qarşı mübarizədə Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlərdən biri də virusun müəyyən edilməsi üçün vacib olan testlərin alınıb ölkəyə gətirilməsi və bu testlərin tətbiq edilməsidir. Bu istiqamətdə də ölkəmizin dünyada ön yerlərdən birini tutduğunu vurğulayan M.Quliyev hesab edir ki, vaxtında Azərbaycanda bütün bu işlərin görülməsi nəticəsində ölkəmizdə yoluxma halları elə də geniş yayılmayıb. Millət vəkili onu da bildirdi ki, bu gün Azərbaycanda koronavirus xəstələrinin müalicəsinin həyata keçirildiyi xəstəxanalar lazımi şəraitlə təmin olunub. Həkimlərin, kiçik və orta tibb işçilərinin fədakarlığını qeyd edən M.Quliyevin sözlərinə görə, onlar öz həyatlarını virusla xəstələrin sağaldılmasına həsr edirlər. Bu gün Azərbaycanın qəhrəman, fədakar həkimlərinin, orta və kiçik tibb işçilərinin, tibb ocaqlarında işləyən texniki işçilərin əməyinin həm mənəvi, həm də maddi cəhətdən dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilməsi halları çox müsbətdir. Azərbaycanda "Yeni klinika"nın açılışındakı çıxışında Prezident İlham Əliyevin ölkəmizin tibb işçilərinin, həkimlərin əməyinə verdiyi qiymət bu ağır dövrdə koronavirusla mübarizə aparan həkimlərə böyük ruh yüksəkliyi bəxş edib: "Koronavirusla mübarizədə fəal iştirak edən, xəstələrin müalicəsini həyata keçirən həkimlərimizin ölkə rəhbərliyi, eləcə də ictimaiyyət tərəfindən alqışlanması özü təqdirəlayiq haldır. Koronavirusla mübarizədə aktiv iştirak edən və bu xəstəliyin məhv edilməsi yolunda gecəsini gündüzünə qatan həkimlərimizin fəaliyyətinə ən böyük qiyməti ölkə başçısının onların fədakar əməyinə verdiyi qiymətdir. Ölkə başçısı fədakar, qəhrəman həkimlərimizin əməyinin misilsiz olduğunu qeyd etməklə onlara mənəvi ruh verdi. Bu dəyər maddiyyatdan, puldan qat-qat üstün dəyərdir. Amma, bununla belə, bilirsiniz ki, ölkə başçısının sərəncamı ilə koronavirusla mübarizə sahəsində fədakarlıq göstərən həkimlərin maaşının 3-5 misli qədər əməkhaqlarının artırılması onların əməyinin stimullaşdırılmasına xidmət edir. Hesab edirəm ki, bu, dövlət tərəfindən həkimlərimizin əməyinə verilən qiymət baxımından çox dəyərli faktdır. Gələcəkdə fədakar həkimlərimizin, orta və kiçik tibb işçilərimizin koronavirusla mübarizə cəbhəsində göstərdikləri fədakarlıq və qəhrəmanlıqlar haqqında əsərlər yazılacaq, mahnılar bəstələnəcək. Bu, gələcəyin işidir. Amma hazırda dövlətin həkimlərimizə verdiyi qiymət, şəxsən cənab Prezidentin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın həkimlərimizin əməyini yüksək dəyərləndirməsi, onları alqışlaması onlara verilən ən böyük qiymətdir. Fikrimcə, biz tezliklə koronavirusa qalib gələcəyik. Koronavirusla mübarizə dövrü başa çatdıqdan sonra isə virusla mübarizədə fədakarlıq göstərən həkimlərimizin bir çoxunun dövlət mükafatına layiq görüləcəyinə qətiyyən şübhə etmirəm. Mənə elə gəlir ki, gələn həftədən artıq yoluxma hallarının azalmasını müşahidə edəcəyik. Amma burada əsas şərt vətəndaşlarımızın karantin rejiminin tələblərinə əməl etməsidir. Dövlət öz üzərinə düşən bütün işləri uğurla həyata keçirib, nə lazımdırsa edib. İndi əsas məsuliyyət vətəndaşların üzərindədir. Ümid edirəm ki, vətəndaşlarımız sona qədər karantin rejiminə əməl etsələr, biz bu mübarizədən çox az itki ilə çıxacağıq. Sizin saytın verdiyi imkanlardan istifadə edərək bütün vətəndaşları dövlətin yanında olmağa, həmrəylik göstərməyə və karantin rejiminin qaydalarına əməl etməyə çağırıram".

**M.Quliyev, həmçinin, qeyd etdi ki, belə virusla mübarizə şəraitində çalışan həkimlərin bütün lazımi tibbi avadanlıqlarla, alətlərlə, eləcə də digər vacib vasitələrlə təmin olunmaları da onların virusla mübarizə aparması üçün geniş şərait yaratdı. Bu vasitələr olmadığı halda həkimlərin heç bir iş görmək gücündə olmadığını deyən M.Quliyevin sözlərinə görə, dövlət böyük məbləğdə vəsait xərcləyərək bütün lazımi vasitələri, dərman preparatlarını alıb gətirdi. Bunun da həkimlərin işinə təkan verdiyini deyən M.Quliyev"Azərbaycan dövlətinin həm həkimlərin əməyinə verdiyi maddi və mənəvi qiymət, həm xəstələrin sağalması üçün həyata keçirdiyi tədbirlər, həm də bu istiqamətdə ortaya qoyduğu digər təcrübə örnəkləri başqa ölkələr üçün də gerçək nümunədir. Bu örnək həm də türk dövlətləri üçün bir yenilikdir, öyrənməli olduqları bir təcrübədir" - deyə qeyd etdi.**

***İradə SARIYEVA***

**Gələn aydan neft hasilatının azalması ilə bağlı OPEC+ və bura daxil olmayan digər ölkələrin istehsal üzrə daha bir tarixi razılığa imza atması gözlənilir. Çünki hasilatın azaldılması ilə bağlı son qərar hələ də qiymətlərin istənilən həddə yüksəlməsi üçün kifayət etmir.**

# Neft qiymətini sürətlə yüksəldəcək yeni saziş gündəmdə... Tramp Rusiya və Səudiyyəyə təşəkkür etdi




Yeni razılığın mümkünlüyü barədə isə artıq ABŞ prezidenti Donald Tramp müəyyən anonslar verib.

Trampın "Twitter" hesabında yazdığına görə, aparılan danışıqlardan görünən odur ki, OPEC+ tərəfindən gündəlik neft hasilatını elan edildiyi kimi 10 milyon barrel yox, əslində 20 milyon barrel azaltmaq məqsədi qarşıya qoyulub: "Buna bənzər nəsə baş versə, dünya da "COVİD-19" fəlakətindən dönüb işlərinə qayıtsa, enerji sənayesi, əvvəlki kimi, indi güman etdiyimizdən xeyli güclü olar. Bu böyük işləri yoluna qaytarmaq üçün mənimlə bir yerdə çalışan hər kəsə, xüsusilə də Rusiyaya və Səudiyyə Ərəbistanına təşəkkür edirəm". Ekspertlər qeyd edir ki, hasilat daha 10 milyon barrel azalsa, neft qiymətlərində həqiqətən də ciddi yüksəliş görmək olar. Ən azı o baxımdan ki, OPEC+ ölkələrinin son razılığı onsuz da qiymətlərin müəyyən yüksəlişinə təkan verib. Araşdırmalar da göstərir ki, OPEC+ formatında atılan son addımlar neft bazarına bir neçə istiqamətdə dəstək verir. Əvvəla, hasilatın azaldılması ilə bağlı qərarın mayın 1-dən icrası qarşısında bütün maneələr aradan qalxmış olur. İkincisi, bu qərarın əhəmiyyəti OPEC+ hesabına yalnız may-iyun aylarında gündəlik hasilatın 9,7 milyon barrel həcmində azaldılması ilə məhdudlaşmır. Eyni zamanda, Səudiyyə Ərəbistanı, Küveyt və Birləşmiş Ərəb Əmirlikləri tərəfindən aprel ayında planlaşdırılan gündəlik 2,7 milyon barrel həcmində neft istehsal edilməyəcək. Bundan başqa, bu qərar OPEC+ formatından kənar ölkələrin də hasilatı azaltmalarını təşviq edir və ilk dəfə olaraq digər iri neft istehsalçıları da bu prosesə qoşulur. ABŞ, Kanada, İndoneziya, Norveç və Braziliya kimi iri neft istehsalçılarının OPEC+ ölkələri ilə həmrəylik nümayiş etdirərək gündəlik neft hasilatını 4-5 milyon barrel həcmində könüllü şəkildə azaltmaq niyyəti də bunun təsdiqidir. Bu isə koronavirus pandemiyasının neftə qlobal tələbatı kəskin zəiflətdiyi bir vəziyyətdə neftin qiymət sabitliyinə çox böyük töhfədir. Amma hesab edilir ki, neft qiymətində istənilən həddi görmək üçün hasilatın yenidən azaldılmasna dair daha bir sazişə ehtiyac var. Məhşur "Goldman Sachs" bankının analitikləri də bildirir ki, OPEC+un neft hasilatını gündəlik 10 milyon barrel azaltmaq qərarı qiymətləri qaldırmaq üçün kifayət etməyəcək. Mütəxəssislər qeyd edir ki, tələbatın artıq yaranmış kəskin azalmasını kompensasiya etmək üçün yeni bir saziş kifayət edər. Hesab edilir ki, OPEC+ formatının yenidən bərpa olunması və bu formatı digər hasilatçıların da dəstəkləməsi qiymətlərdə yeni yüksəlişi təmin edə bilər. Xüsusən də nəzərə alınsa ki, artıq ABŞ da neftin qiymətindəki kəskin ucuzlaşmanın qarşısının alınmasında maraqlıdır. Elə Milli Məclisin deputatı Vüqar Bayramov da məsələyə bu prizmadan yanaşır. O bildirib ki, qeyd edilən fonda OPEC+ formatı çərçivəsində imzalanan anlaşma iki aspektdən tarixi əhəmiyyət daşıyır: "Birincisi, OPEC+ heç zaman hasilatın belə böyük həcmdə azaldılması ilə bağlı qərar qəbul etməmişdi. Praktik olaraq OPEC, xüsusən də OPEC+ formatı formalaşdırıldıqdan sonra, ən böyük hasilat məhdudiyyətinə gedir. İkincisi, OPEC+ formatının son qərarı həm də "neft müharibəsi"nin başa çatması anlamına gəlir. Rusiya ilə Səudiyyə Ərəbistanı arasındakı "neft müharibəsi"nin başlaması ilə bazarda tənəzzül və "qara qızıl" qiymətində kəskin ucuzlaşma müşahidə olundu. Bütün bunlarla yanaşı, OPEC+ formatında qəbul edilən bu qərar hələlik neftin qiymətinin kəskin artmasına gətirib çıxarmayacaq. Hələlik, anlaşmanın bazara təsirləri də ciddi deyil, cüzidir. OPEC bununla qiymətin stabilləşdirilməsinə nail olmağa çalışır. Koronavirusun aktiv olduğu dövrdə neftin qiymətində kəskin artımlar proqnozlaşdırılmır. Nəzərə alaq ki, koronavirus neftə olan tələbin azalmasına gətirib çıxarır. İlkin mərhələdə neft tələbi ilə təklif arasındakı fərq gündəlik 10 milyon barrelə yaxın olsa da, son qiymətləndirmələr göstərir ki, artıq neftə olan tələbatın azalması təklifin tələbi 20 milyon barrelədək üstələməsinə gətirib çıxarıb. Son razılaşma bu tədarük bolluğunun 10 milyon barrelinin kompensasiya edilməsinə səbəb olsa da, hələ də təklif tələbdən çoxdur. Belə olan halda qiymətdə hissedilən artımın olacağı proqnozlaşdırılmır.

Təbii ki, OPEC qiymətləri stabil saxlamağa çalışır. Güman olunur ki, bu, neftin qiymətindəki kəskin ucuzlaşmanın qarşısını müəyyən qədər ala bilər. Bu da birbaşa koronavirusun yayılma coğrafiyasından, eyni zamanda, pandemiyanın təsirlərinin qlobal səviyyədə nə zaman minimumlaşdırılmasından asılı olacaq. Yaxın aylarda pandemiyanın təsirlərini minimumlaşdırmaq mümkün olarsa, yenidən qlobal iqtisadiyyat mərhələli şəkildə əvvəlki vəziyyətinə qayıdarsa, ölkələr arasındakı nəqliyyat əlaqələri bərpa olunarsa, bu halda neftə olan tələbatın yenidən artması müşahidə oluna bilər ki, bu da OPEC+ formatının qiymətə təsirinə səbəb ola bilər.

Beləliklə də, hasilatın azaldılması ilə bağlı qərar daha çox postkoronavirus dövründə bazardakı qiymətə təsir göstərəcək". Amma o da ekspertlər tərəfindən qeyd olunur ki, hasilatın azaldılmasına dair mümkün yeni saziş neft qiymətlərini 50-60 dollarlıq həddə çatdıra bilir. Belə qiymətlər əksər hasilatçılar, o cümlədən Azərbaycan üçün məqbul hədd sayılır.

***Ramil QULİYEV***

# Koronavirusun yayılması ilə bağlı yalan yayanlara həbs - ekspertlərdən birmənalı dəstək...

**İnternet və sosial şəbəkələr "COVID-19" haqqında dezinformasiyalarla doludur. Ekspertlər istifadəçiləri informasiya gigiyenasına əməl etməyə səsləyirlər. Ancaq bəzi şəxslər koronavirusla bağlı həqiqətə uyğun olmayan xəbərlər yayırlar.**

*"Əhali sosial şəbəkə vasitəsilə yayılan yanlış məlumatlara deyil, dövlət qurumlarına inanmalıdır"*

***Azər Həsrət:** "Sosial şəbəkələrdə yalan məlumatları yayan şəxslər..."*

Aparılan araşdırmalar zamanı həmin şəxslər müəyyən olunaraq qanunvericiliyin tələbinə uyğun cəzalandırılırlar.

Bu günlərdə Astara rayon sakininin "WhatsApp" ani mesajlaşma tətbiqi vasitəsilə ayrı-ayrı şəxslərə koronavirus infeksiyası ilə (COVID-19) bağlı dövlət qurumlarının rəsmi məlumatlarına istinad etmədən, reallığı əks etdirməyən və cəmiyyətdə çaşqınlıq yarada biləcək uydurma məlumatlar göndərdiyi müəyyən edilib.

Daxili İşlər Nazirliyi Mətbuat xidmətinin Lənkəran regional qrupunun yaydığı məlumatda qeyd olunur ki, həyata keçirilən müvafiq tədbirlərlə həmin məlumatları yayan şəxsin rayonun Sencərədi kənd sakini Dunyamalı Məmmədov olması müəyyən edilib və o, Rayon Polis Şöbəsinə dəvət olunub. Həmin şəxs inzibati qaydada həbs olunub.

Media sahəsi üzrə ekspert Azər Həsrət hesab edir ki, əhali sosial şəbəkə vasitəsilə yayılan yanlış məlumatlara deyil, dövlət qurumlarına inanmalıdır: "Birincisi, dövlətin bu sahəyə məsul olan strukturları bu məsələ ilə bağlı tədbir görmədi.

Bu baxımdan ki, aidiyyəti dövlət strukturları əhali arasında maarifləndirmə işləri aparmalı və informasiya, məlumat boşluğu yaratmamalı idi.

Təəssüflər olsun ki, o boşluq yaradıldı və müəyyən təxribatçı qruplar da bu boşluqdan sui-istifadə etdilər. Artıq bir müddətdir Çindən qaynaqlanan və hətta uzaq ölkələrə belə gedib çıxan bu virusla bağlı informasiyalar yayımlanır. Azərbaycanın Səhiyyə Nazirliyi bu istiqamətdə informasiya boşluğuna imkan yaradır. Əlbəttə, nazirlik deyə bilər ki, biz olmayan şey haqqında nə danışa bilərik və s. Amma bu virus bir epidemiya halını alıbsa və dünyanı səksəkədə saxlayırsa, gündə bir neçə dəfə bununla bağlı Azərbaycandakı vəziyyət haqqında ictimaiyyətə məlumat verilməlidir. Vəziyyətdən istifadə edən bəzi şəxslər sosial şəbəkə vasitəsilə təxribatçı, dedi-qodu yaradanlar, şayiə yayanlar çıxıblar.



**Əslində, buna, sadəcə, dedi-qodu yaradanlar kimi baxılmamalıdır. Sosial şəbəkələrdə yalan məlumatları yayan şəxslər qanun çərçivəsində həbs olunmalıdırlar".**

*Günel CƏLİLOVA*

# Karantin dövründə insanlar nağdsız ödənişlərə daha çox alışdılar...

**Koronavirusla bağlı narahatlıqlar bütün dünyada hökm sürməkdədir. Virusla bağlı ayrı-ayrı ölkələrdə fövqəladə tədbirlər həyata keçirilir. Hətta dünyanın inkişaf etmiş ölkələri belə virusun qarşısını ala bilmirlər.**

*"Nağdsız ödənişlər həm iqtisadiyyatın şəffaflaşması, həm ticarət dövriyyəsinin real statistik rəqəmlərini görmək, həm də vergidən yayınmaların qarşısını almaq üçün çox önəmli faktlardan biridir"*

***Natiq Cəfərli:** "Azərbaycan regionda ən az nağdsız ödənişləri olan ölkələrdən birincisidir"*

Lakin səmərəli qabaqlayıcı tədbirlər görən ölkələrdə vəziyyət nisbətən qənaətbəxşdir. Ölkəmiz də, öz növbəsində, bütün qabaqlayıcı və operativ tədbirləri həyata keçirir. Bu baxımdan, Azərbaycan hətta bir çox ölkəni qabaqlayır.

Koronavirusun sürətli yayılmaması üçün ölkəmizdə karantin rejimi elan olunub. Belə olan halda, insanlar alış-verişi nağdsız formada edirlər. Karantin rejimi bitəndən sonra əhali yenə də nağdsız alış-verişə üstünlük verib, kağız puldan imtina edəcəkmi?

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı Natiq Cəfərli qeyd etdi ki, bu gün bütün dünya kart sisteminə keçib: "Hətta Avstraliyada son üç ili götürsək, 96 faiz ticarət dövriyyəsi nağdsız həyata keçirilir. Avropada təqribən bu rəqəm 80 faiz, Amerikada isə 70-80 faiz arasındadır. Hətta qonşu Rusiyada 50 faiza çatıb.

Azərbaycanda kölgə iqtisadiyyatının dövriyyəsini azaltmaq istəyiriksə, bu keçid baş verəcək. Yəni əlində bank kartı olan istənilən vətəndaş alış-veriş etməyə imkanı var.

Ancaq bizdə çox yerdə pos-terminallar yoxdur, yaxud da işləmir. İkincisi isə biznesin buna marağı olmalıdır. Dövlət elə bir sistem qurmalıdır ki, biznesin buna marağı olsun. Nağd pulu qadağan etmək mümkün deyil. Heç vaxt da mümkün olmayacaq. Hətta bu, dünyada da texniki olaraq mümkün deyil".

Həmsöhbətimiz onu da əlavə etdi ki, Azərbaycan regionda ən az nağdsız ödənişləri olan ölkələrdən birincisidir. Bu məsələdə Rusiya, Türkiyə, Gürcüstan bizdən çox-çox qabaqdadırlar.



**Bizim üçün şans yaranıb ki, indiki pandemiyadan sonra səhvlərimizi görək və onların düzəldilməsi yolunda addımlar ataq. Nağdsız ödənişlər həm iqtisadiyyatın şəffaflaşması, həm ticarət dövriyyəsinin real statistik rəqəmlərini görmək, həm də vergidən yayınmaların qarşısını almaq üçün çox önəmli faktlardan biridir. Amma bunu qadağalarla, zorla etmək olmaz. Bunu vətəndaşın davranış qaydalarını dəyişmək yolu ilə etmək lazımdır".**

*Günel CƏLİLOVA*

# Karantin dövründə xüsusi icazə və sosial dəstək tədbirləri sahəsində pozitiv və neqativlər - virtual dələduzlar, yas adı ilə SMS-dən sui-istifadə...

## *Fatimə Hacıbəyli: "...nə qədər genişmiqyaslı təhlükəsizlik tədbirləri görüldüyünün şahidi olursan"*

**Ölkəmizdə koronavirusla mübarizə tədbirlərinin daha da effektivliyinin artırılması üçün karantin rejiminin elan edilməsi dövlət tərəfindən bir sıra yeni qaydaların, qadağaların, eləcə də sosial dəstək proqramlarının qəbul edilməsinə səbəb oldu. İçində yaşadığımız koronavirys dövründə xüsusi icazə, sosial müdafiə tədbirlərinin həyata keçirilməsində neqativ və pozitiv təzahürlər özünü göstərməkdədir.**

Bildiyimiz kimi, aprelin 5-dən karantin tədbirləri daha da sərtləşdirildi. Bunun nəticəsində vətəndaşlarımızın gündəlik həyatı sərtləşdirilən qaydalar üzərində quruldu. Vətəndaşlar karantin tədbirləri ilə əlaqədar olaraq yalnız zəruri hallarda xüsusi icazə ilə evdən çıxa bilər. O da 8103 qısa nömrəsinə icazə almaq üçün SMS göndərməklə. Vətəndaşların icazə SMS-lərinin çox operativ şəkildə cavablandırılması diqqətimizi çəkir. Məlum olduğu kimi, 8103 qısa nömrəsinə göndərilən SMS-lərin 91 faizinə 1 dəqiqə ərzində cavab verilib. Azərbaycan üçün yeni bir informasiya mexanizmi olan bu sistem tətbiq olunduğu gündən indiyə qədər insanlara xidmət göstərir. Onu da vurğulayaq ki, tətbiq edildiyi ilk gün 8103 qısa nömrəsinə 800 min SMS göndərilib. Qeyd edək ki, icazə üçün müraciət edənlərin 50 faizi Bakının, qalanları isə digər şəhər və rayonların payına düşür.

Onu da qeyd edək ki, 8103 qısa nömrəsinə müraciət edənlərin böyük bir hissəsinə "hə" cavabı verilib. Əlbəttə, icazə üçün edilən müraciətlərin 91 faizinin 1 dəqiqə ərzində cavablandırılması müsbət haldır.

8103 nömrəsinə müraciət edənlər arasında təəssüf ki, dələduzlara, sui-istifadəçilərə də rast gəlinir. Belə insanlar arasında sözügedən qısa nömrəyə söyüş, əxlaqdan kənar sözlər yazanlar haqqında da məlumatlar yayılıb. Bundan başqa, son günlər yaşanan ən böyük problem və vətəndaş məsuliyyətsizliyi "yas yeri" adı ilə icazə alınmasıdır. Qeyd edək ki, insanlar ən çox bu adla evdən çıxmağa üstünlük veriblər. Artıq yas adı ilə yalan SMS göndərənlərə məhdudiyyət qoyulması prosesinə başlanıb. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov "Real" TV-yə müsahibəsində bu məhdudiyyətin tətbiq edildiyini deyib: "Yalan SMS göndərənlər xüsusi karantin rejimini pozduqlarına görə cərimələnirlər və bundan sonra da təkrarlama halları olarsa, həmin şəxslər barəsində qanunvericiliyə uyğun olaraq digər tədbirlər görüləcək".

Onun sözlərinə görə, son günlərdə təhlillərlə müəyyən olunub ki, gün ərzində 3 kodu üzrə (yaxın qohumun dəfnində iştirak) 30 minə yaxın müraciət olub: "Gün ərzində dünyasını dəyişənlərin statistikasına baxdıqda məlum olur ki, 30 min rəqəmi həddindən artıq çoxdur. Son 8 gün ərzində 3 kodundan sui-istifadə edən şəxsləri müəyyənləşdirmişik. Həmin şəxslərə məhdudiyyətlər tətbiq edilib. Artıq o şəxslər 3 kodundan istifadə edə bilmirlər".

Pandemiya dövründə əhalinin, xüsusən də aztəminatlı və işsiz vətəndaşların sosial rifah halının yüksəldilməsi məsələsi də dövlətin diqqətindədir. Son günlər bununla bağlı bir sıra uğurlu işlərə imza atılıb.

Həyata keçirilən işlərdən biri işsiz vətəndaşlara birdəfəlik 190 manat yardımın verilməsi ilə bağlıdır. Aprelin 13-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat xidmətindən mətbuata bildirilib ki, nazirlik işsiz kimi qeydiyyata alınan 20 min şəxs üçün də birdəfəlik vəsaitin bank filiallarına və poçt şöbələrinə köçürülməsini təmin edib.

Həmin vətəndaşların qeydiyyata alınan zaman qeyd etdikləri telefon nömrəsinə göndəriləcək SMS-də vətəndaşa birdəfəlik vəsaiti haradan gedib alacağı bildiriləcək.

İşsiz şəxs evdən çıxmaq üçün müvafiq qaydada icazə alaraq, mesajda "Azərpoçt" MMC qeyd edilərsə - istənilən poçt şöbəsinə, bank göstərilərsə - həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edib, onun üçün köçürülmüş birdəfəlik ödəməni ala bilər.

Nazirlikdən bildiriblər ki, aprelin 9-dan etibarən bu ödəmələrin verilməsinə başlanıb və proses hər gün davam edir. Nazirlik artıq 75 min işsiz üçün birdəfəlik vəsait ödənişini həyata keçirib.

Çox təəssüf ki, meydana bəzi neqativ qüvvələr çıxıb, onlar birdəfəlik ödəmə ilə bağlı vətəndaşlara pulla kömək edənlərdir. Artıq həmin şəxslərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən xəbərdarlıq edilib. "Son günlər işsiz şəxslərə birdəfəlik ödəmə ilə bağlı qeydiyyatdan keçmələri üçün guya yardım etmək məqsədilə bir neçə sosial şəbəkə səhifəsi vasitəsilə fəaliyyət göstərilməsi müşahidə olunur" - bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Fazil Talıbov deyib.

O, həmçinin, bildirib ki, həmin şəxslər işini və qazancını itirmiş vətəndaşlara onlayn müraciət edilməsində ödəniş müqabilində öz xidmətlərini təklif edirlər: "İşini və qazancını itirmiş əhali qrupuna sosial dəstək üçün nəzərdə tutulan tədbir üzərindən qazanc, mənfəət əldə etmək meyllərini qəti şəkildə pisləyirik.

Bildiririk ki, bu cür fəaliyyətlərin davam etdiriləcəkləri halda onlar barədə toplanmış məlumatlar hüquqmühafizə orqanlarına təqdim ediləcək. Vətəndaşları isə belə fırıldaqçılara aldanmamağa çağırırıq".




## *"Bəzi vətəndaşların məsuliyyətsizliyi, virtual yalançılığı və dələduzluğu neqativ hal kimi ictimaiyyəti ciddi narahat edir"*

Bildiyimiz kimi, pandemiya dövründə insanların işsiz qalmaması üçün dövlət tərəfindən müxtəlif tədbirlər görülür. Bunlardan biri də bu gündən daha 50 min ödənişli ictimai iş yerinin yaradılmasıdır. Bildiyimiz kimi, pandemiya ilə əlaqədar iş yerlərinin qorunması tədbirləri ilə yanaşı, əhalinin məşğulluq imkanlarının artırılması prioritet fəaliyyət istiqamətlərindən biridir.

Bu məqsədlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İş Mərkəzi vasitəsilə aprel-may ayları üzrə əlavə 50 min ödənişli ictimai iş yerinin yaradılması nəzərdə tutulub.

Əlavə ictimai iş yerlərinin rayon və şəhərlər üzrə bölgüsü təsdiqlənib, prosedur və mexanizmlər hazırlanaraq yerlərə göndərilib.

Bu gündən artıq həmin ictimai iş yerlərinin yaradılmasına başlanacaq. Həmin ictimai iş yerləri əsasən dezinfeksiya, sosial xidmətlər və s. istiqamətləri əhatə edəcək.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə bildirdi ki, pandemiya dövründə dövlətin vətəndaşların sağlamlığı, sosial rifahı naminə atdığı bütün addımlar, qəbul etdiyi bütün qərarlar müsbət qarşılanır. "Azərbaycan dövlətinin koronavirusla mübarizə sahəsində apardığı səmərəli mübarizə tədbirlərindən biri kimi ölkədə karantin rejiminin tətbiq edilməsi və aprelin 5-dən qaydaların daha da sərtləşdirilməsi vətəndaşlarımızın sağlamlığı, bu virusa yoluxmaması naminədir. Əslində, karantin rejiminin ilk günlərindən müəyyən insanlar özlərini nizam-intizamlı aparsaydılar və vətəndaş kimi özlərində məsuliyyət hiss etsəydilər, karantin rejimini bu qədər sərtləşdirməyə ehtiyac olmazdı. Amma, göründüyü kimi, qaydaları pozmağa adət etmiş müəyyən faiz insanların davranışları bu sərtliyi zəruri etdi. Görürsünüz, aprelin 5-dən vətəndaşlarımız evdən çölə çıxmazdan əvvəl 8103 qısa nömrəsinə SMS göndərirlər. Bu sistem o qədər operativ, təkmil qurulub ki, edilən müraciətləri qısa zaman ərzində cavablandırır. Aprelin 5-dən indiyə qədər 91 faiz SMS-in bir dəqiqə ərzində cavablandırılması bu istiqamətdə işlərin daha çevik qurulduğundan xəbər verir. Sözsüz ki, bu kifayət qədər böyük rəqəmdir və bu qədər adama tez bir zamanda cavab vermək böyük çeviklik tələb edir. Görürük ki, bu işi həyata keçirənlər kifayət qədər peşəkar və çevikdirlər. Deyim ki, 8103-ə icazə SMS-lərinin göndərilməsi insanların nizam-intizamlı olmasına səbəb olub. Artıq icazəsiz çölə çıxan adam bilir ki, onu cərimə gözləyir, ona görə də icazəsiz bayıra çıxmır.

Aidiyyəti qurumlar vətəndaşın sağlamlığının qorunması üçün öz işini yüksək səviyyədə həyata keçirsələr də, bəzi vətəndaşlarımızın qanunsuzluqlara meyl etməsi narahatlıq doğurur. Ən çox müraciətlərin yas yeri ilə bağlı olması dəhşətdir, bəzi insanlar "yaxın qohumum rəhmətə gedib" adı ilə evi tərk edirlər. Bəzən bir adam eyni adla 8103-ə müraciət edərək icazə istəyir. Çox təəssüf ki, bəzi vətəndaşlarımız 3 koduna davamlı SMS göndərməklə ondan sui-istifadə ediblər, bu da vətəndaşlara inamsızlığın yaranmasına səbəb ola bilər. Artıq bununla bağlı məhdudiyyətlər tətbiq olunur. Əslində, bu yolverilməzdir. Sabah birinin yaxını rəhmətə gedəndə ona icazə verməyə bilərlər. Görün sui-istifadə halı nəyə gətirib çıxarır".

Pandemiya dövründə işsiz vətəndaşlara birdəfəlik 190 manat məbləğində vəsait ödənilməsini, indiyə qədər 75 min işsizin bu vəsaiti aldığını müsbət qarşılayan F.Hacıbəyli hesab edir ki, bu, Azərbaycan dövlətinin cəmiyyətin həssas təbəqəsinə yüksək diqqət-qayğısının nəticəsidir: "Bu gün dövlət pandemiya ilə əlaqədar olaraq işini itirən, işsiz qalan vətəndaşlardan öz dəstəyini əsirgəmir. 5 gün ərzində 75 min nəfərə 190 manat birdəfəlik yardım ödənilməsi işsiz vətəndaşların sosial müdafiəsi istiqamətində dövlətin atdığı mühüm addımlardan biridir. Bu gün işsiz vətəndaşlarımız onlara ödəniləcək birdəfəlik yardımı alırlar. Onu da qeyd edim ki, burada diqqətçəkən neqativ hal da var. Bu da onlara ödənişli "kömək edən" dələduzlardır ki, onların fəaliyyəti ilə əlaqədar hüquq müstəvisində ölçü götürülməsi vacibdir. Bəzi vətəndaşların məsuliyyətsizliyi, virtual yalançılığı və dələduzluğu neqativ hal kimi ictimaiyyəti ciddi narahat edir.

Bununla yanaşı, dövlət daha 50 min ödənişli ictimai iş yerinin yaradılması yönündə addımlar atır. Pandemiya dövründə insanların sağlamlığının qorunması və sosial müdafiəsinin gücləndirilməsi yönündə dövlətin həyata keçirdiyi tədbirləri təhlil edərkən nə qədər genişmiqyaslı təhlükəsizlik tədbirləri görüldüyünün şahidi olursan" - deyə F.Hacıbəyli qeyd etdi.

***İradə SARIYEVA***

# Beynəlxalq "Fitch"in Azərbaycan hesabatında müsbət və anlaşılmaz iki məqam - dövlət borcu yaxşı, xarici investisiyalar isə...

**"Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanı xarici və yerli valyutada emitentin uzunmüddətli defolt reytinqinin (IDR) "BB+" səviyyəsində təsdiq edib. Reytinq üzrə proqnozu isə "stabil"dən "mənfi"yə dəyişib.**

*"Dünya və o cümlədən, Azərbaycan koronavirusdan xilas olduqdan sonra ölkəmiz neqativ yanaşmaları aradan qaldıracaq"*

Reytinq agentliyinin hesabatında Azərbaycanın IDR-ın "BB+" səviyyəsində təsdiq edilməsi ümumi dövlət borcunun aşağı olmasını (2019-cu ildə ÜDM-in 19,1% səviyyəsində) əks etdirir. Yəni dövlət borcunun aşağı olması müsbət hal kimi göstərilir.

Bununla belə, "Fitch" qeyd edir ki, reytinq üzrə "mənfi" proqnoz neftin ucuzlaşması və COVID-19 virusunun pandemiyasının yaratdığı şokların Azərbaycanın xarici buferlərinə mənfi təsirini və makroiqtisadi sabitliyin pozulma risqinin artmasını əks etdirir. Bildirilir ki, 2020-ci ilin əvvəlindən etibarən Azərbaycan Dövlət Neft Fondu (ARDNF) mart ayında 1,9 milyard dollar daxil olmaqla valyuta hərraclarında 2,9 milyard dollar satıb. Ümumiyyətlə, ARDNF 2020-ci ildə satışını planlaşdırdığı xarici valyutanın 45%-ni artıq realizə edib.

Sözügedən agentliyin məlumatına görə, Dünya Bankının "Ease of Doing Business" göstəricilərində Azərbaycan 2019-cu ildə yaxşı nəticələr əldə edib, lakin iqtisadiyyatı şaxələndirmək üçün əhəmiyyətli qeyri-neft xarici investisiyaları cəlb etmək imkanı qeyri-müəyyən olaraq qalır.

Maraqlıdır, sözügedən reytinq agentliyinin xarici sərmayələrin cəlbi ilə bağlı bədbin yanaşması nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimov "Fitch"in xarici sərmayələrlə bağlı yanaşmasına bir qədər fərqli prizmadan yanaşdı: "Azərbaycanın rəsmi statistik məlumatlarına baxanda məlum olur ki, qeyri-neft sektorunda ixrac rəqəmləri elə də yüksək deyil. Hələlik Azərbaycan iqtisadiyyatında neft sektoru üstün səviyyədədir. Qeyri-neft sektoruna yetərincə xarici sərmayə cəlb olunmayıb. Sərmayə cəlb olunsaydı,

***Fuad İbrahimov:*** *"Qeyri-neft sektoruna xarici sərmayələrin cəlbi bir ilin işi deyil, buna zaman lazımdır"*




bu, statistik rəqəmlərdə özünü göstərərdi. Ancaq bir məqamı nəzərə almaq lazımdır ki, qeyri-neft sektoruna xarici sərmayələrin cəlbi bir ilin işi deyil, buna zaman lazımdır. Düzdür, müəyyən mənada biz bəzi illəri itirmişik. Söhbət ondan gedir ki, müəyyən boşluqlar səbəbindən zamanında qeyri-neft sektoruna xarici sərmayələrin cəlb edilməsi ilə bağlı işlər görülməyib. Əsasən bu istiqamətdə işlər 2015-ci ildən sonra sürətləndirilib. 2015-ci ildə neftin kəskin ucuzlaşması tək bizim iqtisadiyyata deyil, digər neft amilindən asılı olan ölkələrin iqtisadiyyatına da ciddi təsir edib.

Həmin ildən sonra Azərbaycanda iqtisadiyyatın inkişafına dair bir sıra "Yol xəritələri" qəbul olundu. Nəticədə qeyri-neft sektorunun inkişafına dair proqram tərtib olundu. İndi bu proqramla bağlı da müəyyən işlər görülür. Koronavirus səbəbindən bütün dünya iqtisadiyyatında durğunluq yaşanır. Düşünürəm ki, "Fitch"in bugünkü hesabatı sonra dəyişəcək. Dünya və o cümlədən, Azərbaycan koronavirusdan xilas olduqdan sonra ölkəmiz neqativ yanaşmaları aradan qaldıracaq. Nəticədə iqtisadiyyat inkişaf mərhələsinə daxil olacaq və qeyri-neft sektoruna xarici sərmayə daha çox yönələcək".

***Vidadi ORDAHALLI***

# Bu il bütün bank əmanətlərinin cəmi 10 faizi bölgələrdə olsa da - bölgələrdə 31 faiz artım nə ilə bağlıdır...

**Məlum olduğu kimi, Azərbaycan Mərkəzi Bankının statistik hesabatı yayılıb. Sözügedən hesabatda 2020-ci ilin fevral ayının sonunda ölkədə bütün bank əmanətlərinin 10,34 faizinin bölgələrin payına düşdüyü qeyd edilir. Bu onu göstərir ki, Azərbaycanın bölgələrində bank əmanətlərinin həcmi artıb.**

*"Banklar son zamanlar daha çox regionlarla işləməyə başlayıblar"*

2020-ci il fevral ayının sonuna Azərbaycanın bölgələrində sakinlərin bank əmanətlərinin həcmi 898,7 milyon manat təşkil edib ki, bu da 2019-cu ilin eyni dövrü ilə müqayisədə 215.9 milyon manat və ya 31.6 faiz çoxdur.

Hesabat dövründə ölkənin bölgələrindəki bütün əmanətlərin 84,6 faizi (760,6 milyon manat) milli valyutada əmanətlərin payına düşüb. Fevral ayının sonuna olan məlumata görə, Bakıdakı ümumi əmanətlər 7,8 milyard manat təşkil edib ki, bunun da 3,36 milyardı milli valyutadadır.

2019-cu ilin dekabr ayı üçün ölkədə orta illik əmanət dərəcəsi 3,7 faiz, Bakıda 3,6 faiz təşkil edib.

Bölgələrdə əmanətlərin 31 faiz artımı nə ilə bağlıdır?

Tanınmış iqtisadçı-ekspert Ruslan Atakişiyev bizimlə söhbətində bildirdi ki, son illər banklar bölgələrdə işləməyə daha çox meyl edirlər. "Qeyd edək ki, banklar son zamanlar daha çox regionlarla işləməyə başlayıblar. O cümlədən də yerli müştəriləri cəlb etmək baxımından banklar işlər görürlər. Digər tərəfdən də əlverişli üsullarla regionlardakı əmanətçiləri cəlb etmək üçün şərtlər qoyurlar. Hesab edirik ki, ümumiyyətlə, Azərbaycan manatı ilə qoyulan əmanətlərin sığortalanmasının ilin sonuna qədər davam etdirilməsi bu sahədə olan təşviq məsələlərindən biridir".

***Ruslan Atakişiyev:*** *"Azərbaycan manatı ilə qoyulan əmanətlərin ilin sonuna qədər sığortalanmasının davam etdirilməsi..."*



**R.Atakişiyev hesab edir ki, bu gün bankların bölgələrdən müştəri cəlb etməsi üçün həyata keçirdiyi mexanizmlər regionlarda əmanətçilərin banklara daha çox əmanət qoymasına səbəb olub. "Bankların bölgələrdəki əmanətçilərə əlverişli şərtlər təqdim etməsi və Azərbaycan manatı ilə qoyulan əmanətlərin ilin sonuna qədər sığortalanmasının davam etdirilməsi nəticəsində bölgələrdə əmanətlərin fazi bu dərəcədə artıb" - deyə R.Atakişiyev bildirdi.**

***İradə SARIYEVA***

# Bakıda mənzillər də, kirayə qiymətləri də ucuzlaşdı - koronavirusa görə müvəqqəti hal, ya virusdan sonra...

**Koronavirus infeksiyası (COVID-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Təəssüflər olsun ki, adıçəkilən virus ölkəmizdə də qeydə alınıb. Virusun sürətlə yayılmaması üçün ölkədə karantin rejimi tətbiq olunub.**

*"...onlar kirayə haqlarını ödəyə bilmirlər"*

Qeyd edək ki, karantin rejimi ilə bağlı əksər sahədə işlər dayandırılıb. Aparılan araşdırmalara görə, koronavirusla əlaqədar olaraq son zamanlar daşınmaz əmlak bazarında vəziyyət dəyişib. Belə ki, evlərin və kirayə mənzillərin qiyməti ucuzlaşıb.

Məsələ ilə bağlı fikir bildirən "Unipirice" Ekspertiza və Qiymətləndirmə Mərkəzinin direktoru Ramil Qasımzadə də kirayə mənzil bazarında qiymətlərin enməsinin mövcud şəraitlə bağlı olduğunu bildirdi. Onun sözlərinə görə, bəzi əmlak sahibləri yaranmış vəziyyətlə əlaqədar qiymətlərdə kirayəçilərə 10-30 faiz arasında güzəşt ediblər: "Koronavirus pandemiyasının yayılması nəticəsində bəzi sahələrdə, xüsusən xidmət sektorunda işlərin dayanması ilə əlaqədar həmin sahələrdə çalışan vətəndaşların gəlirləri azalıb və onlar kirayə haqlarını ödəyə bilmirlər. Müqaviləsiz işləyənlərin bir çoxu artıq işlərini itirib. Ona görə də məcburiyyət qarşısında evləri tərk edərək sahiblərinə təhvil verməli olublar. Pandemiyanın nə qədər davam edəcəyi məlum olmadığına görə bazarda gözləmə mövqeyi hökm sürür".

Həmsöhbətimizin sözlərinə görə, bəzi sektorlarda işlərin dayandırılması ilə əlaqədar qeyri-yaşayış sahələrinin də gəlirliliyi aşağı düşüb: "Xüsusilə xidmət sektoruna aid olan obyektlərdə icarə qiymətlərində

***Ramil Qasımzadə:** "Vəziyyət bu cür davam edəcəyi təqdirdə növbəti aylarda daşınmaz əmlak bazarında satış və kirayə qiymətlərinin enməsi qaçılmaz olacaq"*



müəyyən qədər ucuzlaşma müşahidə olunur. Çünki həmin obyektlərdə gəlirlər, demək olar ki, yoxdur.

İcarəyə götürülən obyektlərin bir çoxu fəaliyyət göstərmədiyi üçün icarə qiymətləri ilə bağlı sahibkarlarla əmlak sahibləri arasında danışıqlar aparılır. Ona görə də icarədarlar müəyyən qədər güzəştə gedirlər".

R.Qasımzadə hesab edir ki, vəziyyətin bu cür davam edəcəyi təqdirdə növbəti aylarda daşınmaz əmlak bazarında satış və kirayə qiymətlərinin enməsi qaçılmaz olacaq.

***Günel CƏLİLOVA***

# "Kar", "kor", "lal" qalan dilimiz - onu niyə bu günə qoyurlar...

**Dil canlı orqanizmdir, o işləndikcə inkişaf edir, cilalanır, ömrü uzun olur. Ancaq bəzən təəssüf ki, dilimizdəki sözlərə biganə yanaşırıq, onun alınma, yaxud da törəmə sözlərlə əvəzlənməsinə göz yumuruq. Bəlkə də son illər dilimizin işləklik səviyyəsi ilə bağlı problemlər olmasaydı, heç bu yöndə rəsmi sənədlərin qəbul edilməsinə, müvafiq tövsiyələrin verilməsinə ehtiyac qalmazdı.**

*"Dilçilik İnstitutu dilimizdən heç bir sözü çıxarmayıb və bu sözlər də Azərbaycan dilinin çapa hazırlanan orfoqrafiya lüğətində öz əksini tapıb"*

Son vaxtlar ana dilimizdən bir sıra sözlərin çıxdaş edilməsi və onların yeni, tamamilə qondarma sözlərlə əvəzlənməsi haqqında məlumatlar dolaşır.

Sosial şəbəkələrdə bir neçə sözün Azərbaycan dilinin orfoqrafiya lüğətindən çıxarıldığına dair məlumatlar yayılıb. Məlumatlara görə, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu tərəfindən "kar", "kor", "yetim" sözləri dilimizin orfoqrafiya lüğətindən çıxarılıb. Dilçilik İnstitutu "kar-zəif eşidən", "kor-gözdən əlil", "yetim-valideyn himayəsindən məhrum" sözləri ilə əvəzləyib. Böyük və ciddi narazılığa səbəb olan bu məsələ ətrafında qalmaqallı fikirlər, müzakirələr və narazılıqlar bitib tükəmir. Bu məsələnin ən çox bədii tərcümə ustalarını narahat etdiyi məlumdur. Ana dilimizdən hər hansı bir sözün çıxarılmasının doğru olmadığını deyənlər hesab edirlər ki, bu sözlərin özləri qalmaq şərtilə bənzəri də işlədilə, qeyd edilə bilərdi.

Dilçilik İnstitutunun dilimizdən sözügedən sözləri çıxarmasına yanaşma ikilidir. Bir qisim insan hesab edir ki, institut bunu heç bir əsaslandırma aparmayaraq özbaşına edib, bəziləri isə bunun şayiə olduğunu, institutun belə bir addım atmadığını bildirir.

Başqa bir qisim insan isə qeyd edir ki, "zəif eşidən", "gözdən əlil" və "valideyn himayəsindən məhrum" sözləri yalnız o insanlara aid müəssisələrin adında əks olunacaq. Belə fikirlər var ki, Dilçilik İnstitutu beynəlxalq qurumların tövsiyələrinə əsasən bu addımı atıb. Bu fikri əsaslandırmaq istəyənlər qeyd edirlər ki, kar, kor, yetim kimi sözlər bu qəbildən olan insanları

***Möhsün Nağısoylu:** "Azərbaycan dilindən "yetim", "kar", kor" sözünün çıxarılması ilə bağlı məlumat tamamilə yanlışdır"*




qıcıqlandırdığı üçün, onların başqa uyğun sözlə əvəzlənməsi vacibdir.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu dilimizdən bu sözləri nəyə əsasən çıxarıb, onların bununla bağlı rəsmi izahı nədir?

Dilçilik İnstitutunun direktoru Möhsün Nağısoylu "Bakı-Xəbər"ə açıqlamasında məlumatı təkzib etdi. M.Nağısoylu qeyd etdi ki, bu tamamilə uydurama məlumatdır: "Azərbaycan dilinin orfoqrafiya lüğətindən, yaxud dilimizdən "yetim", "kar", "kor" sözlərinin çıxarıldığını ilk dəfə sizdən eşidirəm. Dilçilik İnstitutu dilimizdən heç bir sözü çıxarmayıb və bu sözlər də Azərbaycan dilinin çapa hazırlanan orfoqrafiya lüğətində öz əksini tapıb, izahlı lüğətdə də qeyd ediləcək. Biz qədim dövrlərdən başlayaraq, mövcud olan sözləri bu vəsaitə salmışıq, klassik şairlərimizin şeirlərində işlənilən sözlər də lüğətdə var. Dilçilik İnstitutu Azərbaycan dilində əks olunan və işlənilən heç bir sözü dəyişməyib, dilimizdən silməyib. Azərbaycan dilindən "yetim", "kar", kor" sözünün çıxarılması ilə bağlı məlumat tamamilə yanlışdır" - deyə M.Nağısoylu qeyd etdi.

***İradə SARIYEVA***

№ 57 (4188) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

15 APREL 2020-ci il

www.baki-xeber.com

## Yaşlanmanın qarşısını alan ferment tapıldı

**Alimlər heyvanların bağırsaqlarında qocalmanın və zəifliyin qarşısını ala biləcək unikal ferment tapıblar. "Milli.Az" xəbər verir ki, bu fermentin tədqiqi Massaçusets Tibb Mərkəzində mütəxəssislər tərəfindən aparılır. Ekspertlər iddia edirlər ki, fermentin öyrənilməsi əbədi gənclik eliksirinin tapılmasına və ömrün uzanmasına gətirib çıxara bilər.**

Bu gün tibbdə qəbul olunub ki, insanın qocalmasını sürətləndirən iki amil var: iki növ bağırsaq pozğunluğu. Hər şeydən əvvəl bu, mədə-bağırsaq disfunksiyası və xroniki bağırsaq iltihabıdır. Onlar insanın qocalmasında əsas rol oynayır, lakin bu prosesin dəqiq tənzimlənməsi alimlər üçün sirr olaraq qalır. Riçard Hodinin başçılıq etdiyi tədqiqat qrupu bu tapmacanın əhəmiyyətli hissəsini aşkar edib. Mütəxəssislər siçanların bağırsaqlarını araşdıranda bağırsaq və sistematik iltihabın qarşısını alan inanılmaz ferment tapıblar. Heyvan modellərinə əsaslanaraq ekspertlər mədə-bağırsaq traktından qaraciyərə və sonra bədənin qalan hissəsinə axan venoz sistemi yoxlayıblar. Bu ferment zəifliyin inkişaf etməməsinə və ömrün artmasına kömək edir. Fermentin özəlliyi ondadır ki, bağırsaq bakteriyalarının tərkibini sabit saxlaya və yaşlanmaya aparan iltihablı prosesləri idarə edə bilir. Fermentin çoxdan elmə məlum olmasına baxmayaraq, əvvəllər belə funksiyası öyrənilməyib. O bədənin hər yerinə yayılmır, ancaq bağırsaqlarda olur. İnsanlar üçün bu, toksik deyil və əgər bağırsaqlarda onun tərkibi azdırsa, dərmanlar lazımi səviyyəyə çatdıra bilər. Beləliklə, fermentin düzgün "dozası" bağırsaqlarda iltihablı proseslərin dayanmasına, o cümlədən, piylənmə və şəkərli diabetdən qurtulmağa gətirib çıxaracaq.

## Norveçdə elektrik yarış təyyarəsi hazırlanır

**Norveçin "Equator Aircraft" şirkəti elektrik yarış təyyarəsi hazırlamağa başlayıb. Bu aparatla şirkət 2021-ci ilə planlaşdırılan ilk elektrik təyyarələri yarışında iştirak etmək niyyətindədir.**



"İctnews.az" bildirir ki, "Air Race E" yarışlarının təşkili ilə eyniadlı startap məşğul olur. İndiyədək dünyada belə yarış keçirilməyib. İlk sınaq uçuşları 2020-ci ilin sonuna nəzərdə tutulub, ilk rəsmi yarışların isə bir il sonra keçirilməsi planlaşdırılır. Yarışlarda 400 km/saat sürətlə 1,5 km uzunluğunda dairəvi hava yolu ilə bir dönmədən digərinə uçacaq 10 təyyarənin iştirakı gözlənir. Yarışda uçuşun hündürlüyü 9 metr təşkil edəcək. Yarışların tələblərinə görə, "Air Race E" elektrik təyyarəsi 100-150 kilovat/saat gücündə elektromotorla təchiz edilməli və 300-350 kq çəkiyə malik olmalıdır. Aparat əvvəlcədən yarışlar üçün yaradılmalıdır. İştirak üçün 10 şirkət, o cümlədən, "Equator Aircraft" müraciət edib. Bildirilir ki, elektrik təyyarələrin hazırlanmasında ixtisaslaşan Norveç şirkəti artıq "P2 Xcursion" elektrik hidrotəyyarəsinin uçuş sınaqlarına başlayıb. Bundan başqa, şirkət dörd və səkkiz nəfərlik sərnişin tutumuna malik "X4" və "X8" elektrik təyyarələrinin yaradılması ilə məşğuldur.

## "Uşaq Qaynar Xətt" xidməti üç ayda 1300-dən artıq müraciət qəbul edib

*Ölkənin lider mobil operatorunun dəstəyilə fəaliyyət göstərən xidmətə daxil olan zənglərin sayı artır*

**"Azercell Telekom" MMC-nin təşəbbüsü və dəstəyilə yaradılan Azərbaycan "Uşaq Qaynar Xətt" xidməti 2020-ci ilin birinci rübündəki fəaliyyəti ilə bağlı hesabatı ictimaiyyətə təqdim edib. Belə ki, ölkədə COVID-19 virusunun yayılmasının qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində karantin rejimi elan olunmasına baxmayaraq, xidmət bir gün də olsun işini dayandırmayıb, "Uşaq Qaynar Xətt"in əməkdaşları fəaliyyətlərini ev şəraitində davam etdiriblər.**

Beləliklə, bu ilin ilk rübü ərzində Azərbaycan "Uşaq Qaynar Xətt"inə, ümumilikdə, 1313 zəng daxil olub. Bunlardan 411-i yanvar, 438-i fevral, 464-ü isə mart ayında edilib. Müraciətlərin əksəriyyəti: 625-i təhsil mövzusuna aid olub. Yerdə qalan zənglərin 114-ü sosial, 118-i psixoloji, 199-u hüquqi, 98-i səhiyyə, 159-u isə digər sahələrdə yaranan sualları əhatə edib. Xidmətə daxil olan zənglərin 692-si qızlar, 612-i isə oğlanlar tərəfindən olunub. Müraciətlərin xarakterindən asılı olaraq, xidmətə təkrar zəng edənlər də olub. Əvvəlki illərdən fərqli olaraq, bu ilin mart ayında zənglərin sayında nəinki azalma, əksinə, artım müşahidə edilib.

Fəaliyyət göstərdiyi 10 ilə yaxın müddətdə "Uşaq Qaynar Xətt"i həm uşaq və yeniyetmələr, həm də ümumilikdə, ictimaiyyət arasında kifayət qədər etibar qazanıb. Xidmətin əməkdaşlarının vasitəçiliyi ilə bu rüb ərzində daxil olan müraciətlər əsasında 76 ailə ilə görüş təşkil edilib, 44 aidiyyəti ünvana məktub göndərilib. Bundan əlavə, xidmətin əməkdaşları mütəmadi olaraq ölkə mediasında çıxış edərək uşaq hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə fəaliyyətində aktiv iştirak ediblər.

Azərbaycan "Uşaq Qaynar Xətt" xidmətinin əsas məqsədi problemlə üzləşmiş hər bir uşağa sosial xidmət göstərmək, psixoloji və hüquqi yardım etmək, emosional dəstəklə yanaşı, onlara üzləşdikləri çətinliklərin həllinə dair məsləhətlər verməkdir. Bundan əlavə, ehtiyac yarandığı halda "Uşaq Qaynar Xətt" xidməti müraciətlərin digər müvafiq xidmətlərə yönləndirilməsini də təmin edir.

Qeyd edək ki, "Azercell Telekom" MMC-nin dəstəyi, "Ümidli Gələcək İctimai Birliyi"nin təşkilatçılığı ilə 7/24 rejimi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də "Azercell" nömrələrindən edilən zənglər ödənişsizdir. "Uşaq Qaynar Xətt" xidmətinə daxil olan bütün məlumat məxfi saxlanır.

Hazırda xidmətə məxsus 116111 qısa nömrəsi mobil nömrəyə yönləndirilib və müraciətlər 7/24 mütəmadi olaraq operatorlar tərəfindən cavablandırılır. Həmçinin, uşaqlara (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80 və (051) 580 22 80 nömrələri ilə günün istənilən saatında "Qaynar Xətt" xidmətinə müraciət etmək imkanı yaradılıb.

Karantin rejimi ilə əlaqədar qarşıdakı dövrdə müraciət edənlərə çevik yardım göstərilməsini təmin etmək məqsədilə xidmətin sosial media kanalları üzərindən də təbliği və tanıdılması nəzərdə tutulub.

Qeyd edək ki, "Uşaq Qaynar Xətt" xidməti haqqında ətraflı məlumatı www.usaqxetti.az internet səhifəsindən əldə etmək mümkündür.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Gün gözlənilməzliklər gətirir - hərdən xoş, hərdən də dərdə salan. Bilirsiniz ki, baş verənləri götür-qoy etmək lazımdır, ancaq heç cür sakitləşə bilmirsiniz. Üstəlik, heç düşünməyə vaxtınız da yoxdur.



**Buğa** - Bu gün şəxsi işləriniz arxa plana keçir. Sizin üçün qiymətli olan insanlara kömək etməli olacaqsınız. Müştərək işlər, ümumi məqsədə çatmaq üçün səylərin birləşdirilməsi üçün əla gündür.



**Əkizlər** - Sakit və xoş gündür. Ürəyiniz istəyən işlə məşğul ola bilərsiniz. Əlavə problem yaranmayacaq. Köhnə dostlarınızla ünsiyyət xoş keçəcək. Sizi qonaqlığa və yaxud ziyafətə dəvət etsələr, imtina etməyin.



**Xərçəng** - Nəinki, özünüzün, həmçinin başqalarının da problemlərinin öhdəsindən gəlirsiniz. Ancaq ehtiyatlı olun! Sizin mərhəmətinizdən sui-istifadə edə bilərlər. Tez-tez özünüzə xatırladın ki, bəzi xahişlərə "yox" demək lazımdır.



**Şir** - Uğurlu gündür, ciddi problemlər gözlənilmir. Enerjiniz çoxdur, xeyli işləməli olsanız da, yorulmaq bilmirsiniz. Tikinti ilə məşğul ola, köçməyə hazırlaşa bilərsiniz.



**Qız** - Bu gün aktiv fəaliyyətdən daha çox düşüncəyə dalmaq daha məsləhətli olacaq. Verdiyiniz qərarları dərhal həyata keçirməyə çalışmayın. Maraqlı görüşlər mümkündür, amma xoş tanışlığın tezliklə romantik məcrada davam edəcəyinə ümid etməyin.



**Tərəzi** - Kütlə qarşısında çıxış məsləhət görülmür. Sövdələşmələr bağlamağa tələsməyin. Peşəkar və şəxsi məsələləri bir-birindən fərqləndirmək lazımdır. Şəxsi simpatiya və antipatiyanın iş yerində, iş yerinin problemlərinin isə evdə bir işi yoxdur.



**Əqrəb** - Şəxsi məsələlərə aid qərar verməyə tələsməyin. İndi hər şeyi sakitcə düşünüb, götür-qoy etmək lazımdır. Xırda alış-veriş edə, qarderobunuzu yeniləyə, imicinizdə dəyişiklik edə bilərsiniz.



**Oxatan** - Xırda, amma gözlənilməz hadisələr çoxluq təşkil edəcək. Bunlar planlarınızı korlaya bilər. Amma sözün düzü, bu, sizi elə də kədərləndirməyəcək - nəinki yeni şəraitə alışacaq, həmçinin ondan öz mənafeyiniz üçün istifadə biləcəksiniz.



**Oğlaq** - Günün əvvəlində sizə elə gələcək ki, uğur üzünüzə gülür və tezliklə nailiyyət qazanacaqsınız. Ancaq bir müddət sonra aydın olacaq ki, işlər, düşündüyü qədər də yaxşı deyil.



**Dolça** - Ciddi və məsuliyyətli iş görmək üçün elə də münasib olmayan, çətin gündür. Günün ilk yarısı diqqətinizi toplaya bilməyəcəksiniz. Heç nə alınmır, böyük səhvlər edir və bu səbəbdən əsəbləşirsiniz.



**Balıqlar** - Evdə özünüzü daha rahat hiss edirsiniz. Uzaq səfərlərə getmək, ekzotik əyləncə mərkəzlərində yeni təəssüratlar axtarmaq məsləhət deyil. İnsanların çox olduğu yerlərə getməyin, kütlə qarşısında çıxışlardan çəkinin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dodaqların rəngi koronavirusdan xəbər verə bilər

**Koronavirus əlamətləri üzrə qruplaşdırılan məlumatlara görə, virusa yoluxmanı xəstənin dodaqlarının vəziyyəti, xüsusən rənginin dəyişməsi də öncədən göstərə bilər.**

"Medicina.az" bildirir ki, koronaviruslu xəstələrlə işləyən həkimlər pasiyentlərin dodaqlarının xarakterik rəng almasına diqqət yetiriblər. Hər 3 xəstədən birinin dordaqları göyərmiş rəng alıb.

Həkimlər bunun pnevmoniya fonunda baş verdiyini izah edirlər.

Mütəxəssislər dodaqların soyuq, göyərmiş və hətta qançır rəngi aldığını görən kimi yubanmadan xəstəxanaya müraciət etməyi tövsiyə edirlər.

Göyərmiş dodaqlar orqanizmdə kifayət qədər oksigen çatmamasını göstəricisidir. Bu isə virusun ağciyərlərə çatması deməkdir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.